Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 147 (8170) ÇƏRŞƏNBƏ, 10 iyul 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## AZƏRBAYCAN TARİXİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ: qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf



# Tarix yaradan və tarixi yaşadan lider

Azərbaycan xalqı zaman-zaman bir-birindən çətin və ağır sınaqlardan çıxmış, tarixin sərt dönüşlərində ona yol göstərən, millətin varlığını qoruyub saxlayan, liderlik və xilaskarlıq missiyasını üzərinə götürən, bu missiyanı ömrünün sonunadək şərəflə doğruldan görkəmli şəxsiyyətlərin fədakarlığı, onların Vətənə, xalqa sonsuz məhəbbəti sayəsində varlığını qorumuş, öz müstəqilliyini bərpa edə və möhkəmləndirə bilmişdir.

Son 100 ildə isə tariximizin ən mürəkkəb, ən keşməkeşli, çətin, eyni zamanda ən şərəfli səhifələri yazılmış və xalqımız müstəqil, güclü, qüdrətli, müasir və demokratik dövlətini qurmağa nail olmuşdur.

Bu dövlətin qurulmasında, yaranmasında, onun iqtisadi, siyasi, ideoloji əsaslarının formalaşmasında, Azərbaycan xalqının mütəşəkkil və güclü bir millət kimi təşəkkül tapmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri danılmazdır və onun rolu əvəzsizdir.

**Azərbaycan xalqının böyük oğlu, uzaqgörən və müdrik dövlət xadimi Heydər Əliyevin tariximizdə qoyduğu izlər əbədidir və Azərbaycan durduqca bu izlər də əbədi olacaq, Heydər Əliyevin adı onun qurduğu bu dövlətlə birlikdə çəkiləcəkdir. 2019-cu il iyulun 14-də Azərbaycan tarixində Heydər Əliyevlə başlanan yeni səhifənin açılmasının 50 ili tamam olur.** Yarıməsrlik bir dövrü əhatə edən bu tarixdə baş verən hadisələr o qədər sürətlə cərəyan etmiş, məzmunca o qədər zəngin olmuşdur ki, bunların göstərilən zaman çərçivəsində baş verdiyinə inanmaq olmur. Bu dövrün isə ən mühüm hadisələri, ən çətin və qürurverici anları, ən böyük sınaqları, uğurları və qələbələri zəmanəsinin görkəmli siyasi xadimi, Azərbaycan xalqının fəxri və qüruru olan Ulu Öndər Heydər Əliyevin və onun yolunu, ideyalarını ardıcıl davam etdirən, reallaşdıran Azərbaycan Prezidenti İlham Əliyevin adı ilə bağlıdır.

Azərbaycanın canlı tarixi olan Heydər Əliyevin son dərəcə mürəkkəb, çətin və ibrətamiz ömür salnaməsini başdan-başa Vətənə, xalqa həsr olunmuş bir ömür adlandırmaq olar. Bu ömrün hər səhifəsi zəngin bir dastandır və onu oxumaq, öyrənmək üçün heç olmasa Heydər Əliyev ömrünün izinə düşüb getməli, bu səhifələri diqqətlə izləməlisən. Bu bir həqiqətdir ki, Ulu Öndərin həyat tarixçəsi, gördüyü misilsiz işlər haqqında çox yazılsa da, bu fenomenal şəxsiyyətin irsinin tam öyrənildiyini hələ demək olmaz və bu irsin müasir zaman prizmasından bir daha təhlil edilərək indiki nəsillərə daha dərindən çatdırılması vacibdir. Çünki Heydər Əliyev XX əsrdə Azərbaycan xalqının yetirdiyi ən güclü şəxsiyyətlərdəndir və onun həyat tarixçəsi Azərbaycanın XX əsr tarixinin ən şanlı səhifələrindən biridir. Heydər Əliyev 1999-cu il martın 27-də etdiyi bir çıxışında deyirdi: **"Ölkəmizin XX əsrdəki tarixini doğru-düzgün əks etdirmək, yazmaq üçün mütləq tədqiqatlar, tarixi araşdırmalar aparılmalıdır və obyektiv, ədalətli əsərlər yazılmalıdır".** Son illərdə bu boşluğun doldurulması üçün müəyyən işlər görülsə də, azdır.

*Ardı 4-cü səh.*

# Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər uğurla inkişaf edir









İyulun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk ilə təkbətək görüşü olub. Daha sonra tərəflər geniş tərkibdə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusku qarşıladı.

Təkbətək görüşdə çıxış edən Prezident **İlham ƏLİYEV** dedi:

- Cənab Prezident, Azərbaycana xoş gəlmisiniz. Sizi ölkəmizdə görməyə çox şadıq. Mən sizin Azərbaycana bundan əvvəlki səfərinizi xatırlayıram. O vaxtdan bu yana Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər uğurla inkişaf edib.

Biz çox sayda görüş keçirmişik və çox uğurla inkişaf edən əməkdaşlığımızla bağlı geniş spektrli məsələləri müzakirə etmişik. Bu, çox sahələri əhatə edir və biz tərəfdaşlığımızı yeni səviyyəyə yüksəltməyə nail olmuşuq.

Əminəm ki, səfər çox uğurlu olacaq. Əlbəttə ki, biz gündəliyimizdə duran məsələləri müzakirə edəcəyik və Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək əməkdaşlığı planlaşdıracağıq. Əminəm ki, qarşıdakı illərdə biz tərəfdaşlığın müsbət məcrada inkişafını davam etdirəcəyik, bu da Azərbaycanın maraqlarına xidmət edir. Ümidvaram ki, uğurla həyata keçirdiyimiz bütün layihələr yaxşı nəticələr verəcək. Bir daha xoş gəlmisiniz. Sizə ölkəmizdə xoş vaxt keçirməyi arzulayıram.

* * *

Avropa İttifaqı Şurasının Prezidenti **Donald TUSK** dedi:

- Təşəkkür edirəm, cənab Prezident! Sizin qonağınız qismində burada - Bakıda, Azərbaycanda olmaq hər zaman böyük məmnuniyyətdir. Bu, yəqin ki, mənim Avropa İttifaqı Şurasının Prezidenti qismində Bakıya son səfərimdir. Mənim niyyətim Avropada bizim hamımız üçün Sizin ölkənizlə mümkün qədər ən yaxşı əlaqələrə sahib olmağın nə dərəcədə mühüm olduğunu vurğulamaqdan ibarətdir. Mənim mesajım tamamilə aydındır.

Mən bizim əlaqələrimizə gəldikdə, Sizin şəxsi rolunuzun, şəxsi iştirakınızın nə dərəcədə əhəmiyyətli olduğunu bilmənizi istəyirəm. Mən Sizin səylərinizi həqiqətən qiymətləndirirəm. Siz hər zaman çox konstruktivsiniz və Sizin çox müsbət və konstruktiv rolunuz sayəsində bizim görüşlərimiz də olduqca səmərəli keçir. Bir daha təşəkkür edirəm, cənab Prezident!

* * *

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskla işçi nahar çərçivəsində geniş tərkibdə görüşü olub.

# Prezidentin müdrik siyasətinin böyük təntənəsi

Xan Sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzinin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi Prezident İlham Əliyevin Vətən naminə yürütdüyü müdrik, uzaqgörən siyasətin çox böyük qələbəsidir. Həmin sahədə əldə olunan digər mühüm uğurlarla yanaşı, bu qələbə sübut edir ki, xalqımız ümumdünya mədəniyyətini, müasir sivilizasiyanı yaradan xalqlardandır. Bunun dünya miqyasında qəbul olunması, daha doğrusu, rəsmi olaraq etiraf olunması həqiqətən çox böyük tarixi qələbədir.

Dünyanın ən qədim şəhərlərindən biri, 2700 ildən çox yaşı olan Şəki şəhəri haqqında bu tarixi qərarın UNESKO-nun Ümumdünya İrs Komitəsinin məhz Bakıda keçirilən 43-cü sessiyasında qəbul edilməsi isə Azərbaycan üçün çox mühüm tarixi hadisədir. Bu qələbə çox çətin, mübarizələrlə dolu yolun parlaq sonluğudur. Bu qələbənin tarixi Ulu Öndər Heydər Əliyevin 2002-ci ildə unudulmaz Şəki səfərindən, Prezident İlham Əliyevin Şəkiyə səfərlərindən, onun Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə məşhur Şəki abidələri ilə tanışlıqlarından, ölkə rəhbərinin birbaşa göstərişi ilə görülən bərpa işlərindən, Prezidentin Şəki ilə bağlı verdiyi çoxsaylı sərəncamlardan başlayır.



Mən Prezidentin Şəki səfərləri zamanı onun Şəki abidələri ilə, şəhərin bütün qədim məhəllələri ilə tanış olmasının, təkcə Aşağı Karvansaraya dörd dəfə gəlməsinin şahidiyəm. Aşağı Karvansarayla tanışlıq zamanı Prezidentin **"bu abidənin bərpası zamanı onun memarlığına qətiyyən əl vurmayın"** göstərişini necə kəskinliklə verməsinin şahidiyəm.

*Ardı 6-cı səh.*

# Qanunvericilik bazası daha da təkmilləşdirilir

İyulun 9-da Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirildi. Milli Məclisin Sədri Oqtay Əsədov gündəlikdə 35 məsələnin olduğunu bildirdi. İlk olaraq "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi üçüncü oxunuşda müzakirə edildi. Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli dedi ki, təklif olunan dəyişikliklər Milli Məclisin Daxili Nizamnaməsinə edilən dəyişikliklə əlaqədardır. Qanun layihəsi qəbul edildi.

Komitə sədri "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsini də üçüncü oxunuşda müzakirəyə təqdim etdi. Bildirildi ki, bu qanunlara təklif edilən dəyişikliklər Milli Məclisin Daxili Nizamnaməsinə edilən dəyişiklikdən irəli gəlir. Qanun layihəsi təsdiq olundu.



"Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya"ya I və II Düzəlişlərin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun layihəsi haqqında Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov məlumat verərək düzəlişlərin mahiyyətini diqqətə çatdırdı. Qanun layihəsi qəbul edildi.

Deputatlar bir zərfə daxil olmuş "Məhkəmələr və hakimlər haqqında" qanunda dəyişiklik edilməsi barədə, Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında, Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında və İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihələrini də üçüncü oxunuşda müzakirə etdilər. Komitə sədri Əli Hüseynli qeyd etdi ki, nəzərdə tutulan dəyişikliklər Azərbaycan Prezidenti tərəfindən imzalanmış "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel tarixli fərmanın icrası ilə əlaqədardır. Qanun layihələri qəbul edildi.

*Ardı 3-cü səh.*

# Donald TUSK: "Avropa İttifaqı Azərbaycanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir"

İyulun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk mətbuata bəyanatlarla çıxış ediblər.





## Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident, əziz qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, mən bir daha Avropa İttifaqı Şurasının Prezidenti cənab Donald Tusku Azərbaycanda salamlamaq istərdim. Bu, cənab Prezidentin ölkəmizə ilk səfəri deyil, Avropa İttifaqı Şurasının Prezidenti qismində ikinci səfəridir. Mən dəfələrlə Brüsseldə səfərdə olmuşam. Beləliklə, bu, bizim çox fəal siyasi dialoq apardığımızı göstərir. Cənab Prezidentin bugünkü səfəri bir daha onu nümayiş etdirir ki, Avropa Komissiyası ilə Azərbaycan arasında əlaqələrin çox müsbət dinamikası var.

Bu gün təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə görüşlərimiz zamanı biz ikitərəfli əməkdaşlığımıza dair geniş spektrli məsələləri, regional inkişaf və təhlükəsizlik məsələlərini müzakirə etdik. Biz yeni sazişlə bağlı Avropa Komissiyası ilə Azərbaycan arasında davam edən danışıqları müzakirə etdik. Danışıqların perspektivləri ilə bağlı fikirlərimizi ifadə etdik. Danışıqlar uğurla davam edir. Bir çox məsələlər artıq öz həllini tapıb. Hazırda biz yaxşı tərəfdaşlıq ruhunda digər məsələlər üzərində iş aparırıq. Ötən il Avropa Komissiyası ilə Azərbaycan arasında Tərəfdaşlıq prioritetləri sənədi qəbul olundu. Bu, çox mühüm sənəddir. Burada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunur. Bu gün Cənab Prezidentlə təkbətək görüşümüz zamanı mən ona Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyimiz barədə məlumat verdim. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən həll olunmalıdır. Uzun illərdir ərazilərimiz erməni işğalı altındadır. Bir milyondan çox qaçqın və məcburi köçkün bu təcavüz və işğaldan əziyyət çəkir. Bizim qəti mövqeyimiz ondan ibarətdir ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Səylərimiz münaqişənin ən tez zamanda həllinə yönəlib. Münaqişənin indiyədək həll olunmamasının əsas səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir. Qeyd etməliyəm ki, beynəlxalq ictimaiyyətin və ATƏT-in Minsk qrupunun səyləri münaqişənin ən tez zamanda həllinə yönəlməlidir. Status-kvo qəbuledilməzdir və dəyişməlidir. Status-kvonun dəyişməsi Azərbaycan ərazilərinin işğaldan azad edilməsinin başlanması deməkdir.

Bu gün biz, həmçinin enerji təhlükəsizliyi, nəqliyyat sektoru ilə bağlı məsələləri müzakirə etdik. Azərbaycan və Avropa İttifaqı bu sahələrdə çox konstruktiv əməkdaşlıq edir. "Cənub qaz dəhlizi" layihəsi uğurla həyata keçirilir. Nəqliyyat sektoruna gəlincə, Azərbaycanda logistika və nəqliyyat sahəsinə yatırılan investisiyalar bizə mühüm nəqliyyat habına çevrilmək imkanı verib. Şərq-Qərb və Şimal-Cənub dəhlizləri ölkəmizin ərazisindən keçir. Sözsüz ki, coğrafi mövqeyimiz üstünlük yaradır, lakin nəqliyyat sektoruna investisiyalar yatırılmasaydı, coğrafi mövqeyimiz o qədər də böyük məna kəsb etməzdi. Bu səbəbdən də son illərdə bizim bu istiqamətdəki səylərimiz artıq yaxşı nəticələr verir, Azərbaycan mühüm tranzit ölkəyə çevrilir. Gələcəkdə bizim tranzit ölkə kimi rolumuz sözsüz ki, artacaq.

Biz digər sektorlarda da yaxşı əməkdaşlıq edirik. Ümidvarıq ki, bütün planlarımız həyata keçiriləcək. Çünki Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr tərəfdaşlıq ruhu və qarşılıqlı dəstəyə əsaslanır. Mən bu əlaqələrin inkişafına verdiyi şəxsi töhfəyə görə xüsusilə Prezident Tuska minnətdarlığımı bildirmək istərdim. O, Azərbaycandakı vəziyyətə yaxşı bələddir. Onun bizim yaxınlaşmağımızda rolu çox mühümdür. Biz də öz tərəfimizdən Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığı gücləndirmək üçün çox işlər görürük. Mən, həmçinin qeyd etmək istərdim ki, Azərbaycan Avropa İttifaqının bir neçə üzv ölkəsi ilə strateji tərəfdaşlığa dair sənədləri qəbul edib və ya imzalayıb. Bu da bizim əməkdaşlığımıza yaxşı töhfədir.

Cənab Prezident, bir daha xoş gəlmisiniz. Bu gün bizimlə olduğunuza görə təşəkkür edirəm.

## Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun bəyanatı

- Əvvəla bizi səmimi qarşıladığınıza və bizə göstərdiyiniz qonaqpərvərliyinizə görə Sizə təşəkkür edirəm, cənab Prezident! Bakıya qayıtmaq məndə həqiqətən də məmnunluq hissi doğurur. Kağızımda "küləklər şəhəri" yazılıb, mən bilirəm, bu, Bakının ənənəvi adıdır, lakin bu gün şəhər çox sakit görünür.

Azərbaycan çox nadirdir. Ölkəniz özündə ənənə və müasirliyi birləşdirir. Bu günün mürəkkəb coğrafi landşaftındakı strateji mövqeyinizə görə Siz həm Şərqə, həm də Qərbə doğru baxırsınız. Əvvəllər də qeyd etdiyim kimi, cənab Prezident, Avropa İttifaqı Azərbaycanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir. Avropa İttifaqı və Azərbaycan hər il bir-birinə yaxınlaşır. Münasibətlərimiz intensivləşib və mənim bugünkü səfərim buna aydın işarədir. 2018-ci ildə biz tərəfdaşlıq üzrə prioritetləri müəyyən etdik və Ümumi Aviasiya Məkanı üzrə Saziş, habelə yeni Aİ-Azərbaycan sazişi üzrə danışıqlar yekunlaşmaq üzrədir. İqtisadiyyatlarımız bunlardan faydalanacaq və bizim siyasi, biznes və mədəni münasibətlərimiz dərinləşəcək. Əlbəttə ki, biz bizi sözün həqiqi mənasında birləşdirən "Cənub qaz dəhlizi"ni unutmamalıyıq. Bu müsbət məqam tərəfdaşlığımızı daha yüksək səviyyəyə qaldırmalı, bütün xalqlarımız üçün birbaşa faydalı olmalıdır, Azərbaycanın islahatlar və iqtisadi şaxələnmə prosesini müşayiət etməlidir.

Azərbaycan özünü nəqliyyat və logistika qovşağına çevirmək üçün mühüm addımlar atıb. Mən Azərbaycanın Şərq və Qərb, eyni zamanda, Şimal və Cənub tərəfdaşları üçün iddialarının təcəssümü olan Bakı Limanına səfər etməyi səbirsizliklə gözləyirəm.

Bu gün Prezident Əliyevlə apardığım müzakirələrdə mən Azərbaycanla əməkdaşlığı daha da dərinləşdirmək üçün Avropa İttifaqının hazır olduğunu bir daha təsdiq etdim və eyni zamanda bizim qanunun aliliyi, insan hüquqları və əsas azadlıqlara nə qədər böyük önəm verdiyimizi vurğuladım. Avropa İttifaqı hesab edir ki, həqiqətən açıq olan cəmiyyət uzunmüddətli sabitliyin və bütün vətəndaşlar üçün yaxşı həyatın ən gözəl təminatıdır.

Regionda sabitliyə istinad edərək biz, həmçinin həll olunmamış Dağlıq Qarabağ münaqişəsini də müzakirə etdik. Bu münaqişə hərbi yolla yox, yalnız beynəlxalq hüququn prinsipləri əsasında siyasi yolla öz həllini tapmalıdır. Avropa İttifaqı Minsk qrupu həmsədrlərinin səylərini və Helsinki Yekun Aktının əsas prinsipləri əsasında diqqətin münaqişənin ədalətli və davamlı həllinə yönəlməsini tamamilə dəstəkləyir.

Biz, ümumilikdə gərginliyin azalmasını yüksək dəyərləndiririk, lakin təmas xətti boyunca son itkilər həmsədrlər kimi bizi də narahat edir. Güc tətbiq etməmək üçün təmkinli olmaq önəmlidir, lakin, eyni zamanda sülhə və səmərəli danışıqların aparılmasına imkan verən ab-havanın bərpasına yönəlmiş tədbirlər də mühüm əhəmiyyət kəsb edir. Avropa İttifaqı artıq sülhün qurulmasına yönəlmiş fəaliyyətləri dəstəkləyir və xalqları sülhə hazırlamaq üçün konkret tədbirlərlə kömək etməyə hazırdır.

Nəhayət, bu gün günün ikinci yarısında mən Qobustana səfər etmək şərəfinə nail olacağam. Romalı legionerlər tərəfindən qaya üzərində çəkilən təsvirlər Azərbaycanın minilliklər ərzində Avropada necə də mühüm yer tutduğunun sübutudur. Bu zaman dönəmində mən tərəfdaşlığımızı gələcək illərdə inkişaf etdirəcəyimizi səbirsizliklə gözləyirəm.

Sağ olun, cənab Prezident!

# Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk Bakı Limanının fəaliyyəti ilə tanış olub

İyulun 9-da Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin fəaliyyəti ilə tanış olub.



AZƏRTAC xəbər verir ki, İqtisadiyyat naziri Şahin Mustafayev yeni Bakı Limanının fəaliyyəti, iş prinsipi barədə qonağı məlumatlandırıb. O bildirib ki, 2018-ci il mayın 14-də Azərbaycan Prezidenti İlham Əliyev Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışında iştirak edib. Limanın inşası Prezident İlham Əliyevin ölkənin regional nəqliyyat qovşağına çevrilməsi siyasətində mühüm yer tutur. Azərbaycan Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizlərində yerləşməklə yeni liman üçün zəngin tranzit potensialı yaradır, ona ölkəyə daxil olan, ölkədən daşınan və tranzit yüklərin aşırılmasında strateji nəqliyyat qovşağı funksiyalarını yerinə yetirmək, Xəzər dənizi ilə səmərəli, sürətli və təhlükəsiz bərə keçidini təmin etmək imkanı verir. Bu kompleks Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçün birbaşa yükyığma məntəqəsi funksiyalarını yerinə yetirir. Şimal, Cənub, Şərq və Qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəyə daxil olan yüklər yeni liman kompleksində toplanır və Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilərlə Şərq istiqamətində daşınır. Həmçinin Bakı Limanı Avropa-Asiya ticarət dövriyyəsində mühüm mövqeyə malikdir. Azərbaycan Avropa və Asiyanı əlaqələndirən nəqliyyat dəhlizi və öz strateji mövqeyi ilə nəqliyyat və logistika qovşağı kimi əhəmiyyətli rol oynayır. Yeni limanın ərazisi də daxil olmaqla ətraf ərazidə sərbəst iqtisadi zona yaradılır. Bu, mühüm nəqliyyat qovşağı olan limanı tranzit və daşımalar üçün daha geniş imkanlarla təmin edəcək.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru Taleh Ziyadov qonağa məlumat verib ki, limanda tətbiq olunmağa başlanan IT sistemi bütün əməliyyatları avtomatlaşdırıb yük sahibinə onlayn rejimdə yükə nəzarət etmək, ərazidəki yerini təyin etmək və sair üstünlüklər verir. Yüklərin sürətli və səmərəli yüklənib-boşaldılması üçün Liman Əməliyyat İnformasiya Sistemi vasitəsilə əraziyə daxil olan konteyner, TIR vasitəsilə gətirilən quru yüklərin gəmilərə yüklənmə və boşalma vaxtı müəyyən edilir və proseslər həmin qrafikə uyğun həyata keçirilir. İnternet vasitəsilə işləyən bu əməliyyat sistemi yük sahibinə yükün Bakı Limanına daxil olması və limandan çıxması barədə dərhal məlumat verir. Tətbiq edilən ən son müasir texnoloji və mühəndis həlləri kompleksi regionda beynəlxalq tələblərə cavab verən ən müasir və rahat yükaşırma mərkəzinə çevirir, mühüm nəqliyyat qovşağı kimi onun tranzit və daşıma imkanlarını artırır.

Sonra qonaq limanda yaradılan infrastrukturla tanış olub.

İqtisadiyyat naziri Şahin Mustafayev məlumat verib ki, liman 400 hektar ərazini əhatə edir və 12 yanalma körpüsünə malikdir. Körpülərin ümumi uzunluğu 2100 metrə yaxındır. Müasir dövrün ən son mühəndislik yeniliklərindən olan dəmir-beton konstruksiyalı istinad divarının uzunluğu isə 1777 metr təşkil edir. Limanda Ro-Ro tipli gəmilər üçün iki körpü, yeddi körpüdən ibarət universal quru yük və konteyner terminalı, iki bərə körpüsü, həmçinin xidməti donanma gəmiləri üçün bir körpü inşa edilib. Limanda xidməti donanma gəmiləri üçün körpünün uzunluğu 155 metrdir və buraya eyni vaxtda 11 gəmi yan ala bilər. Limanın yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min konteyner təşkil edir. Ümumiyyətlə isə bütün inşa işləri bitdikdən sonra liman mövcud 17 körpüsü ilə 25 milyon ton yük, o cümlədən 500 min konteyner yük aşıra biləcək.



# Qobustan Milli Tarix-Bədii Qoruğu Avropa İttifaqı Şurasının Prezidentində xoş təəssürat yaradıb

Azərbaycanda səfərdə olan Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk iyulun 9-da Qobustan Milli Tarix-Bədii Qoruğunda olub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə qonaq qoruğun ərazisində yaradılmış muzeydə nümayiş etdirilən eksponatlara baxıb.

Məlumat verilib ki, Qobustan Dövlət Tarix-Bədii Qoruğu açıq səma altında qoruq-muzey kimi böyük şöhrət qazanıb. Ərazidə Daş dövründən Son Orta əsrlərə qədərki həyat və məişəti əks etdirən çoxsaylı maddi mədəniyyət nümunələrini müasir azərbaycanlıların ulu əcdadları min illər ərzində yaradıblar. Qobustan qaya rəsmləri dünyada bu tipli abidələrdən ən zənginidir. Qoruq ərazisində alimlər tərəfindən 6 mindən çox qayaüstü təsvir, 20 mağara və yaşayış yeri, 40 kurqan aşkar edilib və öyrənilib.

Qeyd edilib ki, Qobustan Milli Tarix-Bədii Qoruğundakı nadir qayaüstü rəsmlərin geniş təbliğinin xüsusi əhəmiyyətini nəzərə alan dövlət başçısı İlham Əliyevin sərəncamı ilə qoruq muzeyi üçün yeni bina tikilib.

Qonağın diqqətinə çatdırılıb ki, dünya əhəmiyyətli tarixi abidə olan Qobustan qoruğu 2007-ci ildə UNESKO-nun Maddi-Mədəni İrs Siyahısına daxil edilib.

Donald Tusk ərazidə aparılmış tədqiqat işləri ilə və tarixi eksponatlarla maraqlanıb.

Sonda qonağa Qobustanın tarixini əks etdirən kitablar hədiyyə olunub.

Avropa İttifaqı Şurasının Prezidenti Qobustan Milli Tarix-Bədii Qoruğundan xoş təəssüratla ayrılıb.





# Avropa İttifaqı Şurası Prezidentinin Azərbaycana səfəri başa çatıb

Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun Azərbaycan Respublikasına səfəri iyulun 9-da başa çatıb.

AZƏRTAC xəbər verir ki, Avropa İttifaqının bayrağının və Azərbaycan Respublikasının dövlət bayrağının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusku Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər yola salıblar.



# Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyinə həsr olunmuş VI müşavirənin iştirakçılarına

Hörmətli müşavirə iştirakçıları!

Sizi salamlayır və Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyi münasibətilə təbrik edirəm.

Şərqdə, müsəlman dünyasında ilk parlament respublikasının - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında İstiqlal Bəyannaməsində təsbit olunduğu kimi, bütün millətlərlə dost münasibətlər yaratmaq Cümhuriyyətin xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdi.

Ötən il 100 illik yubileyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi qısa müddət ərzində böyük işlər görə bilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimatın 1919-cu ildə qəbul edildiyi tarix - iyulun 9-u Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilir. Bu gün həmin tarixdən düz 100 il keçir.

Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi 1991-ci ildə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası da Azərbaycan Xalq Cümhuriyyətinin üzləşdiyi çətinliklərlə qarşılaşmışdı. Ermənistan tərəfindən Azərbaycana qarşı ərazi iddiaları və torpaqlarımızın işğalı, mürəkkəb siyasi proseslər, sosial-iqtisadi problemlər müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikasının taleyini sual altına qoymuşdu.

1993-cü ilin iyununda xalqın israrlı tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı tariximizdə dönüş nöqtəsi oldu. Heydər Əliyev Azərbaycanı o ağır vəziyyətdən qurtararaq inkişaf yoluna çıxardı, ölkəmiz bütün sahələrdə inamla irəliyə doğru addımlamağa başladı və xarici siyasət strategiyamızın təməl prinsipləri müəyyən olundu. Ötən dövr ərzində biz güclü, qüdrətli dövlət qura bildik və bu gün biz əminliklə deyə bilərik ki, Azərbaycan dövləti heç vaxt indiki kimi güclü olmamışdır.

Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan, beynəlxalq aləmdə böyük nüfuza malik olan bir ölkədir. Bizimlə əməkdaşlıq edən ölkələrin sayı daim artır. Biz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişik. Biz bütün digər aparıcı beynəlxalq təşkilatlarla çox sıx əməkdaşlıq edirik. Azərbaycan bütün dünyada etibarlı tərəfdaş kimi tanınır, mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edir və buna görə də ölkəmizə böyük hörmət və rəğbətlə yanaşırlar.

Ölkəmizin xarici siyasəti uğurlu daxili siyasətimizin davamıdır. Müstəqilliyimizin möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, ölkəmizin beynəlxalq birliyin fəal üzvünə çevrilməsində diplomatlarımızın, diplomatik xidmət orqanlarımızın müstəsna xidmətləri var.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə son qoyulması, işğal olunmuş ərazilərimizin azad edilməsi və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinin bərpa edilməsi xarici siyasətimizin gündəliyində duran ən vacib məsələdir. Ardıcıl diplomatik səylərimiz nəticəsində beynəlxalq ictimaiyyət ölkəmizin ərazi bütövlüyü və suverenliyini, münaqişənin məhz bu prinsiplər əsasında həllini qətiyyətlə dəstəkləyir.

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyi münasibətilə Xarici İşlər Nazirliyinin, səfirliklərimizin və nümayəndəliklərimizin əməkdaşlarına, xarici siyasət sahəsində çalışan bütün şəxslərə bir daha ən səmimi təbriklərimi yetirir, Azərbaycanın milli maraqlarının qorunması, ölkəmizin beynəlxalq aləmdə layiqincə təmsil olunması və xarici siyasət xəttinin müvəffəqiyyətlə həyata keçirilməsi kimi məsul və şərəfli işdə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2019-cu il*

# Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**1-ci dərəcəli**
**"Vətənə xidmətə görə" ordeni ilə**

Məmmədyarov Elmar Məhərrəm oğlu

**2-ci dərəcəli**
**"Vətənə xidmətə görə" ordeni ilə**

Əzimov Araz Böyükağa oğlu
Hacıyev Hikmət Fərhad oğlu
Həsənov Həsən Əziz oğlu
Həsənov Ramiz Ayvaz oğlu
Hüseynov Nadir Sabir oğlu
Xələfov Xələf Alı oğlu
Quliyev Hüseyn Rzaqulu oğlu
Quliyev Vilayət Muxtar oğlu
Məmməd-Quliyev Mahmud Əhməd oğlu
Orucov Hidayət Xuduş oğlu
Paşayev Hafiz Mir Cəlal oğlu
Polad Bülbüloğlu
Zeynalov Həsən Sultan oğlu

**3-cü dərəcəli**
**"Vətənə xidmətə görə" ordeni ilə**

Abdullayev Şahin Şakir oğlu
Axundov Cavanşir Əşrəf oğlu
Allahverdiyev Qaley Əliyeviç
Bağırov Faiq Nüsrət oğlu
Əliyev Mahir Məmməd oğlu
Əliyev Yaşar Teymur oğlu
Əlizadə Əli Fikrət oğlu
Həsənov Eldar Hümbət oğlu
İsgəndərov Fuad Eldar oğlu
İsmayılov Rəşad Fail oğlu
İsrafilov Qalib Malik oğlu
Qarayev Tamerlan Elmar oğlu
Qəhrəman Elxan Cahangir oğlu
Qəndilov Lətif Seyfəddin oğlu
Qurbanov Fəxrəddin İsa oğlu
Məmmədov Rəşad Eynəddin oğlu
Məmmədzadə Həsən Dilsuz oğlu
Mustafayev Rəhman Sahib oğlu
Nəcəfbəyli Murad Nizami oğlu
Nəcəfov Hüseyn Nizami oğlu
Osmanov Qüdsi Dursun oğlu
Poluxov Elxan Polux oğlu
Rzayev Rasim Şəmsəddin oğlu
Rzayev Tural Anar oğlu
Sadıqov Vaqif İsmayıl oğlu
Sultanov Elnur İxtiyar oğlu
Süleymanov Elin Emin oğlu
Şıxəliyev Əşrəf Fərhad oğlu
Şükürov Ağasəlim Səmədağa oğlu
Tağızadə Tahir Tofiq oğlu
Zeynallı Əkrəm Akif oğlu

**"Tərəqqi" medalı ilə**

Ağayev Nəsimi Məhəmmədəli oğlu
Əhmədzadə Məmməd Bahəddin oğlu
Fərhadov Xəzər Nadir oğlu
Hacıyev Məsim Abdulla oğlu
Hüseynov Cavidan Rizvan oğlu
Hüseynov Hüseyn İsmayıl oğlu
İbrahim Xəzər Zafir oğlu
İsmayılzadə Fariz Akif oğlu
İsmayılzadə Gürsel Qüdrət oğlu
İsmayılzadə Pərviz Cəfər oğlu
Kərimov Emil Zülfüqar oğlu
Qasımov Sultan Məhəmməd oğlu

Quliyev Nuru Ələkbər oğlu
Mirzəzadə Pərvin Xəyyam oğlu
Sadıqov Toğrul Fikrət oğlu
Səlimov Eldar Nadir oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Əhmədov Zaur Rəşid oğlu
Əliyev İlham Salam oğlu
Hacıyev Vüqar Cəbi oğlu
Həbibzadə Elcan İbrahim oğlu
Hüseynov Hüseyn Cəlal oğlu
Qurbanov Ramil Kamil oğlu
Qurbanov Vüqar İsrail oğlu
Məmmədzadə Kamran Vahid oğlu
Musayev Cavid Xəlil oğlu
Musayev Cavid Sokrat oğlu
Nəbiyev Rizvan Novruz oğlu
Nəsibov Ruslan Rafael oğlu
Ramazanov Ağacavid Ağamehdi oğlu
Sadıqbəyli Rövşən Nüsrət oğlu
Şükürov Zaur Ramiz oğlu
Yusifov Mikayıl Vahid oğlu

**"Diplomatik xidmətdə fərqlənməyə görə" medalı ilə**

Abdullayeva Dilarə Zakir qızı
Ağakişiyev Sərxan Tehmur oğlu
Baratlı Rəşad Həmid oğlu
Becanov Samir Arif oğlu
Cəfərov Nadir Yavər oğlu
Əhmədov Elvin Eldar oğlu
Ələkbərli Vüsal Ziyad oğlu
Ələsgərli Emin Xanoğlan oğlu
Əliyev Tale Cahangir oğlu
Fətəliyev Ziya Fazil oğlu
Hacızadə Ayxan Elxan oğlu
İbrahimov Vüqar İsa oğlu
İbrahimova Jalə İbrahim qızı
Kərimli Fəxri Tələt oğlu
Qafarov Vüqar Fariz oğlu
Lətifov Ramel Muqabil oğlu
Məmmədəliyeva Leyla Novruz qızı
Məmmədova Gülnarə Daşdəmir qızı
Musayev Azər Samiddin oğlu
Novruz Rəşad İntiqam oğlu
Novruzova İlahə İlham qızı
Panin Dmitri Yevgenyeviç
Rəfiyev Yalçın İlqar oğlu
Səfərov Emil Firdovsi oğlu
Vəkilova-Mərdəliyeva Mərziyə Cavanşir qızı
Zeynalov Qoşqar Aslan oğlu

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2019-cu il*

# Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarına diplomatik rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının aşağıdakı əməkdaşlarına diplomatik rütbələr verilsin:

**fövqəladə və səlahiyyətli səfir**

Abdullayev Elman Telman oğlu
Aslanov Rəşad Fəxrəddin oğlu
Həsənov Dursun Ayvaz oğlu
Həsənov Ramin Müzəffər oğlu
Hüseynov Bünyad Səməd oğlu
İbrahimova Xanım Məmməd qızı
İmanov Anar Laçın oğlu
Kərimov Anar Qabil oğlu
Qurbanova Nərgiz Akif qızı
Məhərrəmov Anar Abel oğlu
Teymurov Rəmzi Kazım oğlu

**birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi**

Xuduyev Azər Xudayar oğlu
İsmayılov Fəxrəddin Nəcəf oğlu
Qurbanov Oktay Sudef oğlu
Məmmədov Qaya Məmməd oğlu

**ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi**

Atamoğlanov Ağalar Rahim oğlu
Əskərov Əlimirzamin Qəvvam oğlu
İskəndərov İlqar Fazil oğlu
Musayev Tofiq Fuad oğlu
Süleymanov Nüsrət Süleyman oğlu
Süleymanova Leyla Emin qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2019-cu il*

# Fərman Salmanovun xatirəsinin əbədiləşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Qərbi Sibirin Tümen vilayətində nəhəng neft və qaz yataqlarını kəşf etmiş məşhur azərbaycanlı geoloq, görkəmli alim, geologiya-mineralogiya elmləri doktoru, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, Sosialist Əməyi Qəhrəmanı Fərman Qurban oğlu Salmanovun xatirəsini əbədiləşdirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil alan, xüsusi istedadı ilə fərqlənən 2 nəfər tələbə üçün "Fərman Salmanov adına təqaüd" təsis edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Şəmkir şəhərində Fərman Salmanovun heykəlinin ucaldılmasını təmin etsin;

2.2. Şəmkir rayonunda təhsil aldığı ümumi təhsil müəssisəsinə Fərman Salmanovun adının verilməsini təmin etsin;

2.3. bu Sərəncamın 1-ci hissəsi ilə təsis edilən adlı təqaüdün verilməsi qaydasını iki ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2019-cu il*

## Milli Məclisin növbədənkənar sessiyasının plenar iclasında

# Qanunvericilik bazası daha da təkmilləşdirilir

*Əvvəli 1-ci səh.*











İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi də üçüncü oxunuşda qəbul edildi. Dəyişiklik maliyyə bazarlarına nəzarət orqanına haqların ödənilməməsinə görə inzibati cərimə növündə inzibati tənbeh tədbirinin tətbiq edilməsi məqsədi daşıyır. Qanun layihəsi qəbul olundu.

Daha sonra Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi üçüncü oxunuşda müzakirə edildi. Qanun layihəsi "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" 2018-ci il 18 dekabr tarixli qanunun tətbiqi ilə əlaqədar hazırlanıb. Qanun layihəsi təsdiq olundu.

İclasda bir zərfdə daxil olmuş 4 məsələ - Cinayət-Prosessual, Cinayət və Mülki məcəllələrdə, həmçinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri də üçüncü oxunuşda müzakirə edildi. Dəyişikliklər cəza siyasətinin humanistləşdirilməsi ilə əlaqədar uyğunlaşdırma və təkmilləşdirmə məqsədi daşıyırdı. Qanun layihəsi qəbul olundu.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadənin məlumatından sonra "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi üçüncü oxunuşda qəbul olundu.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə isə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsini müzakirəyə təqdim etdi. Qeyd olundu ki, qanun layihəsi xidməti səfərlərin təşkili ilə bağlı prosedurların asanlaşdırılması və bu məqsədlə xarici ölkələrin səfirliklərinə və konsulluqlarına viza rəsmiləşdirilməsi üçün notanın verilməsinə görə dövlət rüsumunun ləğvini nəzərdə tutur. Qanun layihəsi qəbul edildi.

Ziyad Səmədzadə həmçinin "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi barədə məlumat verdi. Dəyişiklik satınalma prosedurlarında iştirak edənlərin vergi öhdəlikləri ilə bağlı tələbləri daha da sərtləşdirir. Qanun layihəsi təsdiq olundu.

"Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihələri ikinci oxunuşda müzakirə edildi.

2019-cu ilin dövlət büdcəsi haqqında qanunda nəzərdə tutulan dəyişikliklərin əsas məqsədi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna (DSMF) dövlət büdcəsindən ayrılan transfertin 150 milyon manat azaldılaraq, həmin vəsaitin xüsusi müdafiə təyinatlı tədbirlərin maliyyələşdirilməsinə yönəldilməsi, sosial paket çərçivəsində DSMF-in gəlirlərinin 350 milyon manat, xərclərinin isə 200 milyon manat artması nəticəsində qanunda müvafiq düzəlişlər edilərək, gəlirlərin xərclərdən artıq olan hissəsi (150 milyon manat) həcmində dövlət büdcəsindən transfertin azaldılması, DSMF-in xərclərinin 200 milyon manat, işsizlikdən sığorta fondunun xərclərinin isə 15 milyon manat artması səbəbindən icmal büdcə xərclərinin yuxarı həddinin 215 milyon manat artırılmasıdır.

Qanun layihələri ikinci oxunuşda qəbul olundu.

Daha sonra "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" digər qanun layihəsi ikinci oxunuşda müzakirə edildi. Dəyişikliklərin məqsədi hakimlərin sosial müdafiəsinin yüksəldilməsidir. Qanun layihəsi qəbul edildi.

Deputatlar Vergi Məcəlləsində və "Dövlət satınalmaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələrini də ikinci oxunuşda qəbul etdilər.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi haqqında (ikinci oxunuş) məlumat verdi. Nəzərdə tutulan dəyişiklik əmək pensiyalarının minimum məbləğinin 1 oktyabr 2019-cu il tarixdən artırılaraq 160 manatdan 200 manata çatdırılması məqsədi daşıyır.

"İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi də ikinci oxunuşda təsdiqləndi. Dəyişikliyə əsasən fondun ötənilki büdcəsindən qalan 15 milyon vəsait özünüməşğulluq tədbirlərinin təşkilinin maliyyələşdirilməsi üzrə xərclərin artırılması məqsədinə yönəldiləcək.

"Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinə əsasən məcəlləyə 146.4-cü maddənin əlavə edilməsi təklif olunur. Bu maddəyə əsasən Dövlət Mənzil Fondunun bu məcəllənin 146.1-ci maddəsinə aid edilməyən yaşayış sahələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallarda özəlləşdirilməsinə yol verilir. Qanun layihəsi ikinci oxunuşda təsdiq olundu.

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsində nəzərdə tutulan dəyişikliklər sarı kəsişmə toru və daimi sağadönmə nişanı ilə əlaqədardır. Bütün bunlar qanunun daha da təkmilləşdirilməsinə xidmət edir. Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Milli Məclisin komitə sədri Ziyad Səmədzadə "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi barədə (ikinci oxunuş) məlumat verdi. Bildirdi ki, Vergi Məcəlləsinin 164-cü maddəsi kənd təsərrüfatı sahəsində bir sıra malların, məhsulların ƏDV-dən azad edilməsini nəzərdə tutur. Eləcə də məcəllədə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikanın idxalı və satışı ƏDV-dən azad edilmişdir. Bu qanun layihəsinə əsasən isə ƏDV-dən azadolma qeyd olunan qurğuların, maşınların, avadanlıqların və texnikanın idxalı və satışı ilə yanaşı, onların istehsalına da tətbiq ediləcək. Bütün bunlar son nəticədə aqrar sektorun dəstəklənməsinə xidmət edəcək. Qanun layihəsi təsdiq olundu.

Parlamentin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov Milli Məclisə bir zərfdə təqdim olunmuş "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Gömrük Məcəlləsində, "Balıqçılıq haqqında", "Yeyinti məhsulları haqqında", "Taxıl haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" və "Çayçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında", "Arıçılıq haqqında", "Reklam haqqında" və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihələri ilə bağlı məlumat verdi. Qeyd olundu ki, qanun layihələri "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli Qanununa uyğunlaşdırma məqsədi daşıyır. Qanun layihələri ikinci oxunuşda təsdiq olundu.

İclasda həmçinin "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında", "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" və "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Gənclər siyasəti haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "İşsizlikdən sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihələrinə ikinci oxunuşda müsbət münasibət bildirildi. Dəyişikliklər "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli Qanununa uyğunlaşdırmaq məqsədi daşıyır.

Müzakirə olunan qanun layihələrindən biri də "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) oldu. Təklif olunan dəyişikliklər publik hüquqi şəxslərin yaradılması, fəaliyyət göstərməsi və təşkili qaydalarını təkmilləşdirmək məqsədi daşıyır. Qanun layihəsi təsdiq olundu.

"Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdıran Milli Məclis Sədrinin müavini, parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov dəyişikliklərin məqsədi barədə məlumat verdi. Qanun layihəsinin məqsədi təbii su mənbələrindən götürülən suya görə güzəşt və azadolma hallarını müəyyən etmək, o cümlədən su obyektlərindən yanğından mühafizə ehtiyacları üçün istifadənin təkmilləşdirilməsidir. Qanun layihəsi təsdiq edildi.

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsinə (ikinci oxunuş) də müsbət münasibət bildirildi. Qanun layihəsi avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarının keyfiyyətinin yüksəldilməsi, bu sahədə fəaliyyəti həyata keçirən operatorun, onun məsul şəxsinin məsuliyyətinin artırılması məqsədi ilə hazırlanmışdır.

Milli Məclisin dünənki iclasında son olaraq "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi ikinci oxunuşda müzakirə edildi. Qanun layihəsi "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Prezidentinin 3 aprel 2019-cu il tarixli fərmanının icrası məqsədilə hazırlanıb. Həmin fərmana əsasən Ədliyyə Nazirliyinə birinci instansiya məhkəmələrində kargüzarlığın aparılması ilə bağlı dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin birbaşa hakimlərin bank hesablarına köçürülməsi barədə təkliflər hazırlamaq tapşırılmışdır. Kargüzarlığın aparılması ilə bağlı dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin birbaşa hakimlərin bank hesablarına köçürülməsi ayrılmış vəsaitlərin daha məqsədli və təyinatlı xərclənməsinə, hakimlərin işinin daha səmərəli təşkilinə xidmət edəcək. Qanun layihəsi təsdiq olundu.

***Rəşad CƏFƏRLİ,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

1969 AZƏRBAYCAN TARİXİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ: qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf 2019

# Tarix yaradan və tarixi yaşadan lider



*Əvvəli 1-ci səh.*

50 il bundan əvvəl baş verən hadisələrə nəzər salarkən bir daha aydın olur ki, o zaman 6 milyonadək əhalisi olan, 30-cu illərin repressiyasını, sonra Böyük Vətən müharibəsinin ağır zərbələrini görmüş, böyük təbii ehtiyatları, o cümlədən nefti, habelə 600 min vətəndaşını qurban verməklə faşizm üzərində qələbə qazanılmasında misilsiz xidmətlər göstərmiş, əvəzində mərkəzi hakimiyyətdən, demək olar, heç nə almamış, sırf aqrar respublika kimi xammal mənbəyinə çevrilmiş, müasir sənaye sahələrindən məhrum edilmiş bir respublika idi. 1969-cu ildə belə bir respublikanın idarə olunmasını öz üzərinə götürmək hədsiz məsuliyyət tələb edirdi. Bu yükün altına girməyə hər insan cəsarət edə bilməzdi. Ancaq görünür, tale Azərbaycan xalqının üzünə elə o zaman gülmüş, bununla Vətənimizin, xalqımızın taleyində yeni era başlanmışdı.

Bütün iqtisadi göstəriciləri ilə keçmiş Sovetlər İttifaqında axırıncı yerlərdən birini tutan, verdiyi külli miqdarda neft məhsullarının, eləcə də kənd təsərrüfatı məhsullarının müqabilində ittifaq büdcəsindən cüzi vəsait alan Azərbaycanın iqtisadi vəziyyəti və xalqın güzəranı o qədər də ürək açan deyildi. **Belə bir çətin məqamda ölkəyə rəhbərliyi öz üzərinə götürən Heydər Əliyevin, görünür, alın yazısı idi ki, xalqın xilaskarı olsun və bu missiyanı bir də 1993-cü ildə təkrarlasın, Azərbaycanın bir dövlət kimi məhv olmaq təhlükəsi qarşısında qaldığı zaman onu xilas etsin. Əlbəttə, zaman keçdikcə bunlar haqqında daha ətraflı danışılacaq və tarixin Ulu Öndərlə bağlı hər bir anı hörmətlə xatırlanacaqdır.**

Ötən əsrin 70-80-ci illərini görən, yaşayan və şahidi olan nəslin insanları o dövrdə Azərbaycanda baş verən inqilabi dəyişiklikləri, Sovetlər İttifaqı üçün gözlənilməz olan yenilikləri, respublika həyatının tamamilə yeni məcraya yönəlməsini heyrətlə qarşılayırdılar. O illəri səciyyələndirərkən, ilk növbədə, respublikanın iqtisadi dirçəlişini, milli-mənəvi dəyərlərimizin, xalqın özünüdərk hissinin formalaşmasını önə çəkmək, həmin dövrü yenilik və tərəqqi illəri kimi qiymətləndirmək lazımdır.

**Heydər Əliyevin qətiyyəti sayəsində 1969-cu ildən sonra Azərbaycanda həqiqətən böyük irəliləyiş və sıçrayış baş verdi, xalq sanki qəflət yuxusundan ayıldı, öz istedadını, gücünü və qüvvəsini dərk etdi və ondan hərtərəfli bəhrələnməyə başladı.** Qısa müddət ərzində bütün ölkə böyük tikinti meydançasına çevrildi, hər yerdə abadlıq və quruculuq işləri böyük vüsət aldı. O dövrün ən müasir texnologiyaları Azərbaycana gətirilərək çoxsaylı zavodlar və fabriklər, sənaye və emal müəssisələri yaradıldı, ölkənin meliorasiya və energetika sistemi tamamilə yenidən quruldu, yeni su anbarları, elektrik stansiyaları, emal müəssisələri inşa edildi, min hektarlarla üzüm plantasiyaları, meyvə bağları salındı, yollar çəkildi, kənd və qəsəbələr sürətlə öz simasını dəyişməyə başladı. Ən başlıcası isə ölkədə qayda-qanun, nizam-intizam yaradıldı, bütün sahələrdə haqqın, ədalətin zəfər çalması təmin edildi.

Bunların hamısı Heydər Əliyev Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra baş verdi. Əvvəllər yalnız nefti ilə tanınan Bakı və Azərbaycan tezliklə nəinki SSRİ-də, hətta onun hüdudlarından uzaqlarda tanınmağa başladı. Qısa vaxt ərzində ölkənin bütün resurslarını səfərbər edən, insanlarda yeni əhvali-ruhiyyə, sabaha inam hissi yaradan böyük təşkilatçı rəhbər Heydər Əliyev respublikanın bütün sahələr üzrə sürətli irəliləyişinə nail oldu. Azərbaycan o dövrdə İttifaqda çox yüksək dövlət mükafatları sayılan Keçici Qırmızı bayraqlar respublikasına çevrildi. Respublikaya münasibət kökündən dəyişdi və bunun sayəsində ittifaq büdcəsindən Azərbaycan iqtisadiyyatına investisiyaların, yəni əsaslı vəsait qoyuluşunun həcmi dəfələrlə artdı.

Bu nailiyyətləri 1969-1982-ci illərin iqtisadi göstəricilərində daha aydın görmək mümkündür. Bu illər ərzində respublikada milli gəlir 2,5 dəfə, kənd təsərrüfatı və tikinti sahələri hər il orta hesabla 7,5 faiz və 5,2 faiz, sənaye istehsalı 2,7 dəfə artmış, bütün sahələr üzrə göstəricilər xeyli yüksəlmişdir. Məhz Ulu Öndərin səyi ilə 1969-1982-ci illərdə ölkə iqtisadiyyatının inkişafı üçün böyük əhəmiyyət daşıyan 173-dən çox sənaye müəssisəsi tikilib istifadəyə verilmiş, mövcud müəssisələr yenidən qurulmuşdur. O dövrün ən qabaqcıl müəssisələri sayılan Bakı Məişət Kondisionerləri, “Azon”, Bakı radioquraşdırma, Sumqayıt kompressorlar, Şirvan cihazqayırma, Ələt ağac emalı kombinatı və digər müəssisələr bir-birinin ardınca istifadəyə verilirdi. Həmin illərdə Naxçıvan Muxtar Respublikasında 13, Bakıda 28, Gəncədə 7, Sumqayıtda 6, Mingəçevirdə 5, Şirvanda 3 yeni sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. **Ölkə iqtisadiyyatına kapital qoyuluşu 1950-ci ilə nisbətən 29,5 dəfə artmış, bütövlükdə 1920-1968-ci illərdəkinə nisbətən 4,5 dəfə çox olmuşdu.**

Bu illər ərzində ölkə iqtisadiyyatında göstəricilərin artımı digər respublikalarla müqayisədə ən yüksək səviyyəyə çatmış, təkcə sənaye və kənd təsərrüfatı sahəsində deyil, elm, mədəniyyət, incəsənət, təhsil sahələrində də çox böyük nailiyyətlər əldə olunmuşdu. Həmin illərdə SSRİ-nin ali məktəblərinə göndərilən tələbələrin sayı sürətlə artmış, Bakıda açılan 5 yeni ali məktəb təkcə respublika üçün deyil, hətta xarici ölkələr üçün mütəxəssislər hazırlamağa başlamışdı. Ulu Öndərin müdrikliyi və uzaqgörənliyi sayəsində SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərilən tələbələr respublikada olmayan ixtisaslar üzrə hazırlanır, bununla da ölkənin gələcək kadr potensialı formalaşırdı. Həmin mütəxəssislər bu gün də respublikanın tərəqqisinə böyük töhfə verirlər.

Həmin illərdə mülki kadrlarla yanaşı, ilk dəfə olaraq, respublikada hərbi kadrların hazırlanması da böyük çətinliklə həyata keçirilməyə başlanmışdı. 1971-ci ildə C.Naxçıvanski adına hərbi məktəbin yaradılması o dövrdə SSRİ-nin siyasi və hərbi rəhbərliyinin kəskin müqaviməti ilə qarşılaşsa da, Heydər Əliyev bu müqaviməti dəf edərək həmin məktəbi yarada bilmişdi. 2019-cu il iyunun 26-da Azərbaycan Ordusu günündə ölkə Prezidenti cənab İlham Əliyev Ulu Öndərin ənənələrini davam etdirərək, hər il olduğu kimi, yenə də bu məktəbin məzunlarının buraxılışında iştirak etmiş, bir daha bu məktəbin təməlini Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu və onun təşəbbüsü ilə yaradıldığını, onun həmişə bu məktəbin fəaliyyətinə böyük diqqət göstərdiyini, hələ o vaxt bizə milli hərbi kadrların lazım olacağını düşünərək vurğulamış və çox düzgün olaraq qeyd etmişdir ki, **“Ulu Öndərin misilsiz xidmətləri Azərbaycan xalqının qəlbində daim yaşayır. Biz onun işini davam etdiririk”.**

Heydər Əliyevin həyat salnaməsini vərəqləyərkən görürük ki, o, həyatı boyu qarşılaşdığı çətin sınaqlara mətanətlə sinə gərmiş, mürəkkəb problemləri aradan qaldırmaq üçün hər zaman misilsiz dözüm və iradə nümayiş etdirmişdir. Hələ dövlət təhlükəsizliyi orqanlarında işlədiyi dövrdən Azərbaycanın gələcəyi, xalqının taleyi barədə düşünən Heydər Əliyev SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin rəhbərliyi tərəfindən milli kadrların bu orqanlara hər vəzifəyə gətirilməsinə hər cür maneələr yaradılmasına baxmayaraq, son dərəcə yüksək peşəkarlığı və mükəmməl hazırlığı sayəsində özü burada rəhbər vəzifəyə yüksəlməyə və həmin orqanda milli kadrların yerləşdirilməsinə nail ola bilmişdi. Respublikada gedən prosesləri, baş verən hadisələri, ümumiyyətlə, Azərbaycanın səciyyəvi xüsusiyyətlərini dərindən bildiyinə görə respublika rəhbərliyinə gəldikdən sonra onun missiyası təşkilatçılıq qabiliyyəti dərhal özünü göstərmiş və tezliklə nəticələrini vermişdi.

Ulu Öndər 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra həmin illəri xatırlayarkən Azərbaycanın müstəqilliyinin bərpasında ortaya çıxan və mahiyyətində Azərbaycanın iqtisadi inkişafına törədilən maneələrin olduğunu qeyd edir və Azərbaycanı sevməyən dairələrin törətdikləri əngəlləri aradan qaldırmaq, hər vasitə ilə ölkənin iqtisadi cəhətdən yüksək inkişafına nail olmaq üçün çox ciddi səylər göstərməli olduğunu qeyd edirdi.

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi illərdə qarşısına qoyduğu məqsədlərdən danışarkən hər şeyin bazasında iqtisadi inkişafın dayandığını deyərək, ilk öncə, iqtisadi bazanın yaradılmasına çalışırdı və ölkədə müasir zavodların, fabriklərin, elektrik stansiyalarının və yaşayış binalarının tikilməsini önə çəkirdi.

Heydər Əliyev 1997-ci il iyulun 5-də milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününə həsr olunmuş təntənəli yığıncaqda çıxış edərkən vaxtilə özünün də işlədiyi bu orqanın müfəssəl tarixi barədə çox maraqlı məlumatlar verərək onların fəaliyyətinə hərtərəfli qiymət vermiş və bir faktı ön plana çəkmişdi ki, əgər Vətəninə, xalqına məhəbbət hissi varsa, harada, hansı vəzifədə olmağından asılı olmayaraq öz xalqına xidmət edə bilərsən. O, fəxrlə qeyd edirdi ki, dövlət təhlükəsizliyi orqanlarının rəhbəri olduğu dövrə Azərbaycan xalqının milli mənafeyinə əks olan heç bir tədbir görülməmişdir. Ulu Öndər 25 ildən artıq rəhbər vəzifələrdə, 1967-ci ildə Dövlət Təhlükəsizliyi Komitəsinin sədri işlədiyini, 14 il Azərbaycana rəhbərlik edərkən də, həmin orqanlara himayədarlıq etdiyini, onların işini Azərbaycan mənafeyinə yönəltdiyini bildirirdi.

**Ulu Öndər Azərbaycan tarixinin və mədəniyyətinin dərin bilicisi idi. O, bu tarixlə fəxr edir, bu mədəniyyəti sevir və öz yüksək vətənpərvərlik hissləri hər zaman cəsarətlə nümayiş etdirirdi.** Vaxtilə Azərbaycanda dissidentlərin olmamasının bir səbəbini də Bəxtiyar Vahabzadə, Xəlil Rza, Ziya Bünyadov, Əbülfəz Elçibəy və başqaları kimi adamları qorumasında gördüyü və bu xidmətlərini qeyd etməyi unutmurdu. O deyirdi: **“Yəni KQB-də işləyərək günahsız insanları da cəzalandırmaq olardı, ancaq bu cür işlər görüb xalqı, milləti, milli mənafeni qorumaq da olardı. Mən isə orada işlədiyim bütün dövrdə bu milli mənafeni qoruyub saxlamışam və çoxları da belə olublar”.** O, ürək ağrısı ilə qeyd edirdi ki, insanlar bu orqana rəhbərlik edən Qorelovski, Hüseynov kimi adamlar düzgün yol tutmadılar, onun nüfuzuna xələl gətirdilər.

Heydər Əliyev son dərəcə müdrik bir insan idi və onun həyat fəlsəfəsi bundan ibarət idi ki, insanlara işləmək, səhvə yol verirsə, onu düzəltmək imkanı vermək lazımdır. Xırda, cılız hisslərdən çox uzaq olan bu müdrik insan özünə qarşı günah işlədən insanları bağışlamağı bacarırdı. O, bunu 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin iclasında etdiyi tarixi çıxışı zamanı xüsusi vurğulamışdır. Həmin iclasda Ulu Öndər hakimiyyətə vəzifə üçün, yaxud başqa məqsəd üçün yox, xalqa xidmət etmək, Azərbaycanı düşdüyü ağır vəziyyətdən qurtarmaq üçün gəldiyini bildirir və hamını eyni məqsəd uğrunda çalışmağa, vahid amal uğrunda mübarizə aparmağa çağırırdı. Heydər Əliyev deyirdi: **“... Bütün xalq da bilməlidir ki, indi biz hamımız bir olmalıyıq. Azərbaycanın bu faciəli dövründə biz böyük fəlakət qarşısındayıq. Bu dövrdə bütün qüvvələr birləşməlidir, bütün siyasi partiyalar, bütün siyasi qurumlar, bütün siyasi və ictimai təşkilatlar, bütün insanlar - hamısı birləşməlidir. Hamı kin-küdurəti kənara qoymalıdır. Hamımız birləşib Azərbaycanı bu ağır vəziyyətdən çıxarmalıyıq”.** Daha sonra qeyd edirdi ki, xırda hissləri də kənara qoymaq, xırda dedi-qoduya yol verməmək və bir məqsəd uğrunda çalışmaq lazımdır və ona qarşı pislik edən hər kəsi bağışlayır, heç kəsdən qisas almaq fikrində deyil. O, qətiyyətlə bildirirdi: **“Mən sizin qarşınızda tam məsuliyyətlə deyirəm və bütün Azərbaycan xalqına elan edirəm ki, ümumiyyətlə, mənim təbiətimdə qisasçılıq hissi yoxdur. Bunu sadəcə olaraq ayrı-ayrı adamlar süni surətdə yaradıblar və bir mənə ləkə vurmaq üçün yox, bizi parçalamaq üçün. Sizə söz verirəm ki, heç vaxt qisasçılıq hissinə qapılmayacağam. Əgər kimsə, nə vaxtsa mənə qarşı düzgün münasibət bəsləməyibsə, nəsə edibsə, inanın ki, mən onların hamısını çoxdan bağışlamışam. Mən özümü o hisslərin səviyyəsinə salmamışam və salmayacağam. Ona görə yox ki, siz mənə indi etimad göstərdiniz, mən belə bir vəzifəyə gəldim, yox. Mən sadəcə bir vətəndaş kimi də heç vaxt heç kəslə ədavət aparmaq, qisas almaq, yaxud da ki, kiməsə pislik etmək istəməmişəm və istəməyəcəyəm”.**

Eyni zamanda əsl dövlət xadimi, dövlət rəhbəri kimi heç bir xaosa, hərc-mərcliyə də yol verməyəcəyini, hər şeydə qanunun aliliyini rəhbər tutacağını vurğulayaraq açıq surətdə və qətiyyətlə bildirirdi: **“Ancaq vəzifə çərçivəsində şübhəsiz ki, hamımız nizam-intizama tabe olmalıyıq, hamımız qanuna tabe olmalıyıq, hamımız qanuna riayət etməliyik, qanunun aliliyini təmin etməliyik və bu yolda, şübhəsiz ki, mən öz əqidəmdən dönməyəcəyəm”.**

Heydər Əliyevin bir siyasətçi, bir dövlət xadimi kimi gücü onda idi ki, o, utopist deyil, realist idi. Həqiqətin gözünə dik baxmağı, boş vədlərdən, uydurmalardansa həqiqəti hər kəsin gözünün içinə deməyi üstün tutur və bundan heç vaxt çəkinmirdi. Həmin tarixi iclasda respublikanı bərbad vəziyyətə salan bəzi insanlar Heydər Əliyevdən Ali Sovetin sədri olarsa, vəziyyətdən çıxmağa qarantiya verib-verməyəcəyini soruşarkən Ulu Öndər bu provokasion sualdan çox hiddətlənmişdi.

O, Milli Məclisin tribunasından ondan qarantiya istəyənlərə üz tutaraq deyirdi ki, hələ 1991-ci ilin fevral ayında bu salonda Azərbaycana xalqı ilə bir yerdə olmaq və xalqın ağır günündə ona kömək olmaq üçün qayıtdığını bildirmişdi: **“Mən heç kəsə heç bir qarantiya vermirəm. Mən özümü peyğəmbər hesab etmirəm... Ona görə də mən heç bir qarantiya vermirəm. Ancaq hesab edirəm ki, Azərbaycan xalqı müdrik xalqdır. Millətimizdə böyük potensial var, hamını birləşdirib bu vəziyyətdən çıxmaq olar”.** Ulu Öndərin bu sözlərində həm böyük məsuliyyət hissi, həm də xalqının gücünə inamı ifadə olunurdu.

Ulu Öndər keçdiyi həyat yolunu əks etdirən memuarlarını yazmasa da, müxtəlif tədbirlərdə müzakirə olunan məsələ ilə bağlı qarşılaşdığı və respublikanın, xalqın taleyi üçün çox əhəmiyyətli olan məqamları vaxtaşırı yada salıb və çox ibrətamiz faktlarla Azərbaycanın taleyində iz qoymuş səhifələri vərəqləyirdi. Bu baxımdan onun dövlət təhlükəsizliyi orqanlarına rəhbərlik etdiyi zaman qarşılaşdığı məsələlərə və bir çox faktlara Azərbaycanın milli mənafeləri mövqeyindən yanaşmasını əks etdirən mülahizələri diqqətə layiqdir.

Ulu Öndər bütün məsələlərə peşəkar və səriştəli yanaşma tələb edirdi və özü də hər bir məsələdə buna əməl edirdi. Çox zəngin mütaliəyə və erudisiyaya malik olan bu müdrik siyasi xadim hər bir kəsdən çalışdığı sahədə mükəmməl bilik və peşəkarlıq tələb edirdi. Onun ürək ağrısı ilə xatırladığı epizodlar repressiya illərində tariximizə, mədəniyyətimizə vurulan zərbələrin bəzi səbəblərini göstərirdi. 1997-ci ilin iyul ayında Milli Təhlükəsizlik Nazirliyi işçilərinin peşə bayramı günündə qeyd edirdi ki, 1950-ci ildə həmin orqanlarda işlədiyi zaman 30-cu illərdə repressiya olunmuş ziyalılarımızdan biri - Salman Mümtazın materialları ilə maraqlanarkən həmin nazirliyin köhnə işçilərindən biri vaxtilə Hüseyn Cavidin, Salman Mümtazın kitabxanasındakı qiymətli kitabların ermənilər və başqa millətə mənsub adamlar tərəfindən vəhşicəsinə yandırıldığını demişdi və Heydər Əliyev belə vandalizmin bir səbəbini də həmin insanların savadsızlığı və mədəni səviyyəsinin aşağı olması ilə izah edirdi. Ulu Öndər ona görə dövlət orqanlarında çalışan adamların mütaliəli, savadlı olmasına böyük əhəmiyyət verirdi və həmin orqanlarda çalışanların ciddi səhvlərinin daha çox dərin biliklərinin və vətəndaş mövqeyinin olmamasından irəli gəldiyini vurğulayırdı.

Heydər Əliyev dövlət orqanlarında, xüsusilə təhlükəsizlik orqanlarında çalışan adamlara məhz tapşırıqları kor-koranə icra etməməyi tövsiyə edir, hətta bunun nəticəsində bəzi görkəmli insanların həyatına son qoyulmasını pisləyirdi. Vaxtilə onun Azərbaycana qayıdışını dəstəkləyən insanlardan biri “Azərnəşr”in direktoru, tanınmış naşir Əjdər Xanbabayevin qətlə yetirilməsini, əslində, onun Azərbaycana qayıdışına mane olmaq cəhdi kimi qiymətləndirirdi və bu cinayətin üstünün açılmasına nə qədər maneçilik törədildiyini, lakin gec də olsa hər şeyin ifşa olunduğunu qeyd edirdi.

Heydər Əliyevin köksündə bir vətəndaş ürəyi döyünürdü. Bu ürək isə öz gücünü doğma yurduna, Vətəninə və millətinə məhəbbətdən alırdı. Heydər Əliyevin əsas amalı Azərbaycan idi, onun tərəqqisi, xalqının maddi-mənəvi inkişafı, imzasını millətlərin, dövlətlərin imzaları içində tanıtması idi. Onun Azərbaycandan müvəqqəti uzaqlaşdırılaraq SSRİ rəhbərliyinə aparılması, əslində, o zaman onun şəxsiyyətinə, istedad və qabiliyyətinə verilən qiymət olsa da, bundan ittifaq dövləti daha çox şey qazandı, Azərbaycan isə bir o qədər itirdi.

Heydər Əliyevin Moskvada olduğu illərdə gördüyü saysız-hesabsız işləri xüsusi qeyd etmək lazımdır. Siyasi Büroda ona nə qədər qısqanclıqla yanaşsalar da, SSRİ-nin yüksək rəhbərliyində təmsil olunan Ulu Öndər hər vasitə ilə Azərbaycanın inkişafına müsbət təsir edən qərarlar qəbul edilməsinə və respublikanın vacib problemlərinin həllinə çox ciddi diqqət yetirirdi. Ancaq təəssüf ki, Azərbaycanı sevməyən və xalqımıza düşmən münasibəti bəsləyən bəzi qüvvələrin təsiri altında bu böyük şəxsiyyətin fəaliyyətinə kölgə salmaq, onu ləkələmək cəhdləri davam edirdi. Siyasi avantürist olan Mixail Qorbaçovun Heydər Əliyev əzəmətindən, gücündən qorxaraq onu rəhbərlikdən uzaqlaşdırması heç də SSRİ-nin xeyrinə olmadı. Həmin illərdə Heydər Əliyevə qarşı “konpromat” kampaniyası davam etdirilir və təəssüf ki, bu işdə bəzi üzdəniraq azərbaycanlı siyasətçilər də Qorbaçovun əlində vasitə rolunu oynayırdılar. Bunun səbəblərini Heydər Əliyev özü belə izah edirdi: **“1987-ci ildə Moskvada işdən kənar edilən-dən sonra mənim başıma nə qədər bəlalar, nə qədər işlər gətirmək istədilər. Burada xalq məni qəlbində saxladığı zaman təəssüflər olsun ki, yaxın silahdaşlarım, o cümlədən bu binada da olan silahdaşlarım vəfasız çıxdılar. Mən təkbaşına bu çətinliklərin öhdəsindən gəldim. 1990-cı ildə yanvar hadisələri zamanı Moskvada çıxış edib Sovet İttifaqının rəhbərliyini ittiham edəndə burada mənim əleyhimə arxivləri axtarmağa başladılar ki, görək Heydər Əliyev burada işləyəndə, ya da respublikanın başçısı olanda nə günah edib, tapaq. 1986-1987-ci illərdə Moskvada ayrı-ayrı adamlar gəlib buradakı adamların - həm Mərkəzi Komitədən, həm də bu orqandan olan adamların iştirakı ilə məni yoxlayırdılar. Mənim babamı yoxlayırdılar, atamı yoxlayırdılar, tərcümeyi-halımı yoxlayırdılar - harada işləmişəm, nə cür işləmişəm. Yoxladılar, mənim əleyhimə heç bir şey tapıb çıxara bilmədilər”.**

Ulu Öndər ona qarşı görülən bu tədbirləri böyük mətanətlə, səbirlə qarşılamış və heç vaxt qürurunu sındırmamışdır. Sonradan bu məsələlər onun səhhətinə çox ciddi təsir göstərmiş, hətta infarkt keçirmişdi. Heydər Əliyev o qədər böyük şəxsiyyət idi, onun xarizması o qədər güclü idi ki, Qorbaçov da, onun əlaltıları da, sonradan Azərbaycana rəhbərlik edən şəxslər də, o cümlədən Xalq Cəbhəsinin rəhbərləri də bu şəxsiyyətin qarşısında duruş gətirə bilməyəcəklərini aydın görür və ona görə də Heydər Əliyevin respublikaya, hakimiyyətə qayıdışının qarşısını hər vasitə ilə almağa çalışırdılar.

Bu qayıdışı ən çox istəyən isə xalq idi, Azərbaycan xalqı. Bunun üçün ilk addımları atan insanlar, “vəzifəsi vətəndaşlıq olan” Əjdər Xanbabayev kimi ziyalılar isə xaincəsinə aradan götürülürdü. Yenə şəxsi ambisiyalar, Heydər Əliyev şəxsiyyəti qarşısında qorxu hissi, karyera, vəzifə hərisliyi bu insanların gözünü kor etmişdi və onların iç üzünü Heydər Əliyev sonralar çox cəsarətlə açıb göstərirdi. 1993-cü il avqustun 24-də keçirilən ümumrespublika müşavirəsində o, hər kəsi öz adı ilə çağıraraq onların bütün yaramaz işlərini Azərbaycan xalqına bəyan etdi.

Ulu Öndərin böyük çətinliklə Naxçıvana, - Bakıya yox, məhz Naxçıvana, - qayıtması, 1991-1993-cü illərdə orada gördüyü işlər haqqında kifayət qədər məlumatlı olan insanlar Heydər Əliyevin respublika rəhbərliyindən heç bir dəstək görmədən bu qədim yurdumuzu təkbaşına necə qoruyub saxlamasına indi az qala əfsanə kimi baxırlar. Heç kəs unuda bilməz ki onun 1993-cü ildəki xilaskarlıq missiyası elə Naxçıvandan başlamışdı və Sovet İttifaqının qorunub saxlanmasına dair referendumun keçirilməsinə yol verilməmiş, Naxçıvan Muxtar Respublikasının adından “Sovet Sosialist” sözləri çıxarılmış, cümhuriyyət dövrünün atributları bərpa olunmuşdu. Bu cür cəsarətli addımlar xalqımızı azadlıq mübarizəsinə daha da ruhlandırmışdı.

Heydər Əliyevin gördüyü işlərin sayı bitib tükənməz olduğu kimi, onun hər bir insan üçün nümunə olan fərdi, təkrarsız cəhətləri də olduqca çoxdur. Onu səciyyələndirən əsas cəhətlərdən biri də həm özünə, həm də başqalarına qarşı son dərəcə tələbkar olması idi. O, 1997-ci il iyulun 5-də keçirilən müşavirədə deyirdi: **“Bir prezident, Ali Baş Komandan kimi, mən özümə etdiyim tələbləri mənə tabe olanlardan da tələb edirəm. Heç kəsin qarşısında bundan artıq heç bir başqa tələb qoymuram. Mən özümə tələbkaram və mənə tabe olan orqanlara, şəxslərə də özümə tələbkar olduğum kimi tələbkaram”.**

Heydər Əliyevin ən güclü cəhətlərindən və onun qazandığı uğurlardan danışarkən mütləq onun hər bir işdə öz xalqına arxalanması, xalqın ona olan dərin inamını qoruyub saxlaması, ən çətin məqamlarda xalqla məsləhətləşməsi, xalqı səfərbər edib öz ardınca apara bilməsidir. Elə buna görə o, Ümummilli Lider statusunu qazanmış və bu şərəfli ad həmişə Heydər Əliyevin adı ilə bir səslənəcəkdir. Bunun əyani sübutu kimi 1993-cü ildə hamımızın gözü qarşısında baş verən unudulmaz hadisələri xatırlamaq kifayətdir. Ozamankı prezident Əbülfəz Elçibəy öz postunu tərk edib Kələki kəndinə gedəndə Heydər Əliyev həyəcan təbili çalaraq hər kəsi ümumxalq mənafeyindən çıxış etməyə çağırır və deyirdi: **“Rica edirəm sizdən, şəxsi ambisiyalarınızı kənara qoyun ... Azərbaycan Respublikasının dövlətçiliyi təhlükə altındadır. Düşünün bunu, fikirləşin və anlayın ki, hər biriniz məsuliyyət daşıyırsınız. Mən hamınızı deyirəm. Müstəqil Azərbaycan qarşısında məsuliyyət daşıyırsınız”.** Həmin il avqustun 29-da keçirilən referendumda Heydər Əliyev bir daha xalqın tam etimadını qazandı və bu, onun sonrakı fəaliyyəti üçün tam qanuni əsas yaratdı.

Heydər Əliyev əyilməz şəxsiyyət idi, öz ideyasına, məsləkinə sadiq olduğuna görə bu yolda canından keçməyə belə hazır idi. O, kənardan heç bir təzyiqi qəbul etmir və cəsarətlə bunu bəyan edirdi: **“Mən dəfələrlə demişəm, bu gün bir daha bəyan edirəm ki, heç kəs mənə təzyiq edə bilməz. Mən öz iradəmdən, - bu isə xalqın iradəsidir, bir namuslu vətəndaş kimi mənim şəxsi iradəmdir, - istifadə edərək Azərbaycanın bu vəziyyətdən çıxması üçün son damla qanıma qədər çalışacağam və heç kəs məni qorxuda bilməz”.**

*Heydər Əliyev kimi şəxsiyyətlərin olduqca zəngin və bənzərsiz həyat yolundan söz açmaq, bu ömrün bütün səhifələrini əhatə etmək üçün hələ çox böyük əsərlər yazılacaq, bu ibrətamiz ömür salnaməsinin hər bir anı nəsilbənəsil öyrəniləcək, tətbiq ediləcək və yaşadılacaq. Çünki tarix onu, o isə tarixi yaşadan bir insan olmuşdur. Tarixi yaradan və tarixi yaşadan Heydər Əliyev kimi dahilər isə özləri tarix qədər əbədidir və əbədi olacaqlar.*

**Süleyman İSMAYILOV,**
***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri, YAP Siyasi Şurasının üzvü***

1969 AZƏRBAYCAN TARİXİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ: qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf 2019

# 50 illik şərəf, quruculuq və yüksəliş salnaməsi

**İyulun 14-də Ulu Öndər Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbər seçilməsinin 50-ci ili tamam olur. Məhz həmin tarixdən respublikamızda başlanan yeni inkişaf kursu və idarəetmə sonrakı bütün mərhələlərdə Azərbaycanın iqtisadi, sosial və mədəni yüksəlişinə, müstəqilliyimizin təmin olunmasına, xalqımızın dövlətçilik ənənələrinin yaşamasına xidmət etdi. Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər bir dövründə ölkəmizi və xalqımızı layiqincə qorudu, ucaltdı, ona etibarlı gələcək bəxş etdi. Milli Məclisin deputatlarının qəzetimizə açıqlamaları da bu barədədir.**



## Heydər Əliyev siyasətinin təntənəsi

**Səttar MÖHBALIYEV,**
*Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri:*

- Hər bir xalqı dünya miqyasında tanıtdıran həm də onun fenomen şəxsiyyətləridir. Belə şəxsiyyətlərin müdrik ideyaları millətin strateji inkişaf konsepsiyasına çevrilərək onun dünya miqyasında özünəməxsus yer tutmasını təmin edir. Bu ideyalar dərin məzmunu ilə cəmiyyətdə monolitliyin aparıcı amili rolunu oynayır. Ulu Öndər Heydər Əliyev də belə fenomen lider kimi insanları öz ideya və baxışları ətrafında toplamış, bu qeyri-adi xüsusiyyəti sayəsində idarəçilikdə ciddi uğurlara imza atmış, siyasi prosesləri yönəltmək məharətilə, cəmiyyətin maraq və mənafelərini ümumi bir nöqtədə birləşdirmək bacarığı ilə xalqın dərin etimadını qazanmışdır.

Ümummilli Liderin inkişaf strategiyasının tarixi 1969-cu ildən - respublikaya rəhbər seçilməsindən başlayır. 1969-cu il iyulun 14-ü Azərbaycan tarixinin və həm də həyatımızın olduqca mühüm hadisəsi kimi yaddaşımızda əbədi qalıb. Bu tarix dövlətçilik tariximizdə dinamik, hərtərəfli inkişaf və intibah mərhələsinin başlanğıcını qoyub. Ulu Öndərin rəhbərliyi illərində həyata keçirilən işlər Azərbaycanda böyük sosial-iqtisadi, elmi və ədəbi-mədəni inkişafa yol açdı. O vaxt sovet rejiminin sərt qanunlarına baxmayaraq qısa zaman kəsiyində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda bütün sahələrdə, o dövrlərdə hətta ittifaq rəhbərliyinin cəsarət etmədiyi addımlar atılırdı. Respublikada korrupsiya, rüşvətxorluq hallarına qarşı başlanmış mübarizə, bu istiqamətdə atılan addımlar və qarşıda duran vəzifələr öz əksini tapırdı.

Tariximizin milli liderlər salnaməsində xüsusi mövqeyi ilə seçilən Ulu Öndər Heydər Əliyev sonrakı dövrdə xalqımızın müstəqillik arzusunu konkret dövlət modelində gerçəkliyə çevirərək milyonların qəlbində əzəmətli abidə ucaltdı. Bu baxımdan Ümummilli Lider Heydər Əliyev həm də müstəqil Azərbaycanın inkişaf strategiyasının müəllifi kimi böyük ehtiramla anılır. Xalq ona inanırdı, bilirdi ki, respublikamızı 1990-cı illərin əvvəlində baş verən təlatümlü burulğandan yalnız Heydər Əliyev çıxara bilər. Elə buna görə də xalqın etimadını doğrultmaq istəyindən ruhlanan Heydər Əliyev belə çətin məqamda məsuliyyəti öz üzərinə götürüb ölkəmizin müstəqilliyini qorudu, onu parçalayıb məhv olmaqdan xilas etdi. Həmin ağır günlərdə Azərbaycan həmkarlar ittifaqlarının çoxsaylı üzvləri də xalqın böyük etimad göstərdiyi və sonsuz ümid bəslədiyi Heydər Əliyevin haqq işinin müdafiəsinə qalxdılar.

Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda milli birlik və həmrəyliyin təmini, həmvətənlərimizin vahid məqsədlər ətrafında birləşdirilməsi və dövlət quruculuğu sahəsində əməli tədbirlər həyata keçirdi. Böyük strateq özünəməxsus uzaqgörənlik və müdrikliklə respublikamızı dərin sosial-iqtisadi və siyasi böhrandan çıxardı. Ulu Öndərin dövlətçilik konsepsiyası Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini özündə birləşdirən yeni inkişaf modeli oldu. İctimai-siyasi sabitlik amili indi də bu modelin əsas dayaqlarından, istinad nöqtələrindən biri kimi çıxış edir. Şübhəsiz, sabitliyə nail olmadan yeni idarəetmə sisteminə keçid formulunu reallaşdırmaq, bazar iqtisadiyyatı və demokratiya, insan hüquqları kimi fundamental prinsiplərin tətbiqinə nail olmaq mümkün deyil. Məhz bu sabitliyin, iqtisadi tərəqqinin nəticəsidir ki, hazırda demokratik normalar qanunların və milli dəyərlərin tənzimlədiyi sərhədlərdən kənara çıxmır və dialektik inkişafa uyğun olaraq getdikcə ictimaiyyət tərəfindən tam şəkildə mənimsənilir.

Ümumiyyətlə, Heydər Əliyevin böyük müdrikliklə irəli sürdüyü inkişaf modeli spesifikliyi ilə fərqlənməklə demokratik dəyərləri özündə maksimum ehtiva edən milli inkişaf prioritetlərini müəyyənləşdirdi. Məhz bunun nəticəsidir ki, Azərbaycan çox qısa müddətdə bir sıra Qərb dövlətlərinin onilliklər ərzində əldə etdiyi iqtisadi tərəqqiyə nail oldu, demokratikləşmə, vətəndaş cəmiyyəti quruculuğu, insan hüquq və azadlıqlarının təminatı sahəsində ciddi uğurlar əldə etdi.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası Ümummilli Liderin qayğısını daim öz üzərində hiss edib. O, həmkarlar ittifaqı fəalları ilə müntəzəm görüşlər keçirmiş, onun ən mühüm tədbirlərinə təbrik məktubları göndərmişdir. Bütün bunlar Konfederasiyanın güclənməsinə, cəmiyyətdə nüfuzunun artmasına xidmət etmişdir. Azərbaycan həmkarlar ittifaqları Ümummilli Lider Heydər Əliyevin diqqət və qayğısını yüksək qiymətləndirmişdir. Təsadüfi deyil ki, ölkəmizdə ilk dəfə olaraq məhz həmkarlar ittifaqları özünün I və II qurultaylarında Ümummilli Liderin Azərbaycan Respublikası prezidentliyinə namizədliyini irəli sürmüşdür.

Ulu Öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli inkişaf strategiyası bu gün onun layiqli varisi - Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir. Mütərəqqi idarəçilik prinsipləri ilə cəmiyyətdə böyük nüfuz sahibinə çevrilmiş cənab İlham Əliyev dövlət başçısı kimi məsuliyyətli və şərəfli vəzifəni inamla icra edir. Ötən 16 il ərzindəki fəaliyyəti verdiyi bütün vədlərin əməli işə və praqmatizmə söykəndiyini, respublikanın gerçək potensialı ilə uzlaşdığını tamamilə təsdiqləmişdir.

2003-cü ildən ölkəyə inamla rəhbərlik edərək onu davamlı tərəqqi və yüksəliş yoluna çıxaran möhtərəm Prezident İlham Əliyevin bu və digər uğurlarının səbəbi heç də təkcə öz fəaliyyətini Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm zəmin üzərində qurması ilə məhdudlaşmır. Burada ikinci mühüm amil cənab İlham Əliyevin müasir düşüncəli siyasi lider kimi yeni iqtisadi münasibətlər sisteminə dərindən bələd olması, modernləşməyə xidmət edən islahatları uğurla həyata keçirməsidir. Cənab İlham Əliyev keyfiyyətcə yeni mərhələdə Azərbaycanın müasir dövlətə çevrilməsini, tam müstəqil siyasət yürütməsini, ən əsası inkişaf etmiş ölkələr səviyyəsinə yüksəlməsini milli ideyanın başlıca hədəfi kimi müəyyənləşdirmişdir.

Həmkarlar ittifaqının növbəti inkişaf mərhələsi Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin adı ilə bağlıdır. O, həmkarlar ittifaqlarının güclü qüvvə olduğunu və Azərbaycanda əmək hüquqlarının qorunmasında, işçilərin sosial məsələlərinin həllində mühüm rola malik olduğunu dəfələrlə qeyd etmişdir. Sosial məsələlərdən söz düşmüşkən, Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasi kursun əsas prioritetlərindən biri məhz vətəndaşların rifahının ardıcıl şəkildə gücləndirilməsidir. Bu ilin birinci yarısında iki sosial paketin imzalanması, minimum əməkhaqqının məbləğinin iki dəfə artırılması, bütövlükdə 5 milyon vətəndaşın sosial rifahının yüksəldilməsi bunu təsdiq edir.

Bütövlükdə, Azərbaycan dövlətinin İlham Əliyevin müdrik rəhbərliyi ilə bu gün qazandığı bütün uğurlar həm də Heydər Əliyev siyasətinin təntənəsidir. Bu siyasət daim yaşayacaq, Azərbaycan dövlətinin qüdrətlənməsinə, xalqımızın rifahına xidmət edəcək.







## Əbədiyaşar öndər

**Tahir SÜLEYMANOV,**
*Milli Məclisin deputatı:*

- Yaxşı xatirimdədir, Mərkəzi Komitənin 50 il əvvəl - 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda Heydər Əliyevin birinci katib seçilməsi ölkədə böyük ruh yüksəkliyi yaratmışdı. Yeni rəhbərdən gözləntilər çox idi. Çünki zəngin sərvətlərinə, iqtisadi və aqrar potenisalına baxmayaraq Azərbaycan ittifaq miqyasında geri qalmışdı. Hətta yalnız dotasiya ilə yaşayan ölkələr də bizdən qabağa getmişdilər.

Çox keçmədən insanlar öz inamlarında yanılmadıqlarını gördülər. Bəli, Heydər Əliyev yeni ideyalar, yeni təşəbbüslərlə, quruculuq və inkişaf əzmi ilə bu ali vəzifəni icra edirdi. Azərbaycanda tamamilə yeni idarəçilik dövrü başlamışdı. Hansı ki, bu dövr bütün rəhbər şəxslərdən, bütün dövlət orqanlarından əməli iş tələb edirdi.

Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişi ilə çağdaş tariximizdə keyfiyyətcə yeni epoxanın, inkişaf mərhələsinin və ən əsası Azərbaycanı müstəqil dövlət qurmağa doğru aparan böyük yolun başlanğıcı qoyuldu. Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 1970-80-ci illər respublikamızın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil oldu. Baş verən qlobal dəyişikliklərin miqyasına, sosial-iqtisadi və mədəni sahələrdə aparılan dərin islahatların xarakterinə, xalqın maddi rifah halının yaxşılaşdırılmasına və yeni mərhələyə keçirilməsinə görə həmin illərin tədqiqi müasir tariximizin daha dərindən öyrənilməsi baxımından da böyük önəm kəsb edir.

Ümumiyyətlə, Azərbaycanın müasir tarixinə nəzər salarkən aydın görünür ki, ölkənin və xalqın ən çətin anlarında Heydər Əliyevə ehtiyac duyulub. Üzərinə düşən böyük missiyanı uğurla yerinə yetirən Ulu Öndər də hər zaman ona bəslənilən ümidləri layiqincə doğruldub. Təsadüfi deyil ki, sovet illərində olduğu kimi, müstəqillik dövründə də məhz Heydər Əliyevin sayəsində Azərbaycan bütün təbəddülatlardan xilas olmağı bacardı. Bu mənada ötən ay 26-cı ildönümünü qeyd etdiyimiz Milli Qurtuluş Günü müasir tariximizə Heydər Əliyev epoxasının əlamətdar hadisələrindən biri kimi düşdü. Əgər Ulu Öndər 1993-cü ildə xalqın təkidli çağırışlarını qəbul etməsəydi, yəqin ki, indi nə müstəqil dövlətimiz vardı, nə də rahat yaşayışımız. Heydər Əliyev hakimiyyətə qayıdandan sonra Azərbaycan dövlətçiliyini qurdu, yaşatdı. Ulu Öndər ağır döyüşlərin getdiyi cəbhə bölgələrinə, səngərlərə baş çəkirdi, hərbçilərin problemləri ilə tanış olurdu, respublikamızın bütün regionlarına, eləcə də xarici ölkələrə səfərlər edirdi, islahatlar aparırdı, yorulmadan çalışırdı. Bu tükənməz enerji, dərin siyasi təcrübə sayəsində yeni, müasir Azərbaycan dövləti quruldu.

Biz bu gün Azərbaycanın qürurverici yüksəlişindən söz açanda uğurlarımıza yol açan strategiyanın müəllifi Ulu Öndər Heydər Əliyevi ehtiramla anırıq. Xalqımız əldə etdiyi bütün möhtəşəm nailiyyətlərinə görə məhz Ümummilli Liderə minnətdardır. Azərbaycanı canı qədər sevən, ürəyi daim xalqının səadəti, xoşbəxtliyi uğrunda döyünən, ölkəsini azad, müstəqil və inkişafda görmək istəyən, Vətəninin, xalqının yolunda həyatını qurban verməyə belə hazır olan Heydər Əliyev dühasının mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq tarixdir. Azərbaycana ilk dəfə rəhbərliyə başlamasının 50-ci ildönümündə biz Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı xidmətlərinə nəzər salır və bir daha görürük ki, tariximizin Heydər Əliyev dövrü müasir Azərbaycan dövlətçiliyinin əsaslarının yaradılması, dövlət müstəqilliyimizin təmin olunması və yüksəlişi mərhələsidir.

Uğurla reallaşdırılan Heydər Əliyev strategiyasının nəticəsi olaraq ötən 16 ildə Azərbaycan dövləti müstəqilliyin daha da möhkəmləndirilməsi, ölkədə davamlı inkişafın təmin edilməsi və əldə edilən uğurlar nəticəsində beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilmişdir. Heydər Əliyevin layiqli siyasi davamçısı Prezident İlham Əliyev bütün sahələrdə ölkəmizin inkişafına nail olmaqla Ulu Öndərin arzularını reallığa çevirmişdir. Ötən 16 ilin statistikasına nəzər salsaq, qürur doğuran nailiyyətlərin qazanıldığını görərik. Ən mühüm uğurlarımızın sırasında Azərbaycanda ümumi daxili məhsul istehsalının 3,3 dəfə artımını xüsusi qeyd etməliyik. Və elə ÜDM-nin tərkib hissəsi olan sənaye potensialı 2,6 dəfə çoxaldı ki, bu da ölkənin keçdiyi inkişaf yolunun mühüm göstəricisidir. Valyuta ehtiyatlarımızın bu dövrdə 50 milyard dollara yaxınlaşması, iqtisadiyyata 260 milyard dollar sərmayənin yatırılması inkişaf yolunun ayrı-ayrı səhifələridir. Bu, ümumiyyətlə, analoqu olmayan yüksəliş nümunəsidir. Bu qısa dövrdə Azərbaycan bir neçə onilliyə bərabər inkişaf yolu keçib.

Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi və müasir dövrdə Prezident İlham Əliyev tərəfindən dönmədən həyata keçirilən siyasi xəttin tam düzgünlüyü dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi, ölkəmizin iqtisadi tərəqqisi və dünya birliyində öz layiqli yerini tutması ilə real təsdiqini tapmışdır. Ölkə rəhbəri cənab İlham Əliyevin təşəbbüsü ilə reallaşan yerli və regional layihələr sayəsində Azərbaycan dövləti öz iqtisadi nəticələri ilə aparıcı dövlətlər sırasındadır.

Ölkəmizin müstəqillik tarixində baş verən proseslərə nəzər saldıqda bir daha aydın olur ki, Azərbaycanın tərəqqisinin, qüdrətlənməsinin və dövlətçiliyimizin əbədiliyinin yolu məhz Heydər Əliyev kursunun davam etdirilməsindən, Ulu Öndərin ideyalarının gerçəkləşdirilməsindən keçir. Çünki alternativi olmayan Heydər Əliyev siyasi xəttinin davam etdirilməsi Azərbaycanın bugünkü və gələcək inkişafının yeganə etibarlı təminatıdır. Prezident İlham Əliyev Heydər Əliyev yolunun ən layiqli davamçısı kimi bu siyasəti layiqincə yaşadır, əzmkarlığı və qətiyyəti ilə uğur qazanmasını təmin edir.

Möhtərəm İlham Əliyevin uzaqgörən və müdrik siyasəti, çoxşaxəli və novator fəaliyyəti, qətiyyəti və əzmkarlığı nəticəsində əldə edilən uğurlar Ümummilli Liderin ideyalarına sadiqliyin ən parlaq nümunələridir. Bütün bunlar hər birimizin qəlbindəki iftixar və vətənimizin daha gözəl gələcəyinə möhkəm inam hisslərini yüksəldir.

## Müasir dövlətçiliyimiz Heydər Əliyev ideyalarından ilham alır

**Nəsib MƏHƏMƏLİYEV,**
*Milli Məclisin deputatı:*

- Hər bir xalqın tarixən formalaşmış dövlətçilik ənənələrinin konkret dövlət modelində gerçəkləşməsi üçün əlverişli siyasi mühit və iradə ilə yanaşı, güclü liderin də olması mühüm şərtlərdəndir. Tarix göstərir ki, daxilən güclü, vətənpərvər və xarizmatik lideri olmayan xalqın yaranmış real şansdan düzgün yararlanması, milli iradəsini ortaya qoyaraq həqiqi müstəqillik istəyinə qovuşması mümkün deyil. Belə liderlər milli dövlətçilik ideyalarının praktik surətdə gerçəkləşməsində, davamlı və sabit tərəqqi üçün dayanıqlı əsasların müəllifinə çevrilirlər.

XX əsrdə xalqımızın yetirdiyi Ulu Öndər Heydər Əliyev də belə şəxsiyyətlərdən olub. Dahi rəhbər müasir Azərbaycanın ideoloji-siyasi əsaslarını tarixi irs və milli-mənəvi dəyərlər zəminində yaradaraq praktik surətdə gerçəkləşdirmiş böyük strateq kimi xalqımızın əbədi və tükənməz sevgisini qazanmışdır. Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında tarixi xidmətləri 1969-cu il iyul ayının 14-dən başlayır. Həmin tarixdən isə 50 il ötür. Bu dövrü nəzərdən keçirəndə görürük ki, xalqımızın zəngin ömür yolunun və fəaliyyətinin hər mərhələsi son əlli illik Azərbaycan tarixinin mərhələləri ilə üst-üstə düşür. Ona görə də müasir dövlətçiliyimizi və tariximizi, onun inkişaf yollarını Heydər Əliyevdən ayrı təsəvvür etmək mümkün deyil.

1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbər seçiləndə ölkə ittifaq miqyasında çox geridə qalmışdı. İqtisadiyyatda, kənd təsərrüfatında vəziyyət ürəkaçan deyildi. Lakin Heydər Əliyevin işgüzarlığı, təşəbbüs və tələbkarlığı ilə respublikada həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində Azərbaycanda müsbətə doğru dönüş başlandı. Xüsusilə qeyd edilməlidir ki, Heydər Əliyevin yüksək təşkilatçılıq bacarığı, yorulmaz fəaliyyəti sayəsində iqtisadiyyatın bütün sahələrində vüsətli dəyişikliklər baş verdi və ölkəmiz Rusiyadan sonra ittifaq büdcəsindən dotasiya almadan yaşayan iki respublikadan birinə çevrildi. Həmin dövrdə Azərbaycanda yaradılan güclü iqtisadi potensial bu gün də müstəqil ölkəmizə xidmət edir. Çünki uzaqgörən, müdrik şəxsiyyət Heydər Əliyev çox gözəl başa düşürdü ki, hər bir millətin siyasi müstəqilliyini şərtləndirən əsas amil onun iqtisadi azadlığıdır. Bu baxımdan Azərbaycanın dünya iqtisadiyyatına indiki dərin inteqrasiyası prosesinin hələ 1970-ci illərdə təməli qoyulmuş potensiala əsaslandığını deyən tədqiqatçıların fikri ilə razılaşmamaq mümkün deyil.

Heydər Əliyevin sayəsində xalqımızın mənəvi dəyərlərinin qorunmasına xidmət edən genişmiqyaslı tədbirlərin həyata keçirilməsi insanlarda milli ruhun və özünüdərkin oyanışını şərtləndirdi. Bu baxımdan Ulu Öndərin sovet hakimiyyəti dövründə Azərbaycana rəhbərliyini ölkəmizə milli-mənəvi yüksəliş mərhələsi kimi də xarakterizə etmək olar. Həmin illərdə Azərbaycan xalqı özünə inamını bərpa etdi, yad mədəniyyətlərin təsirindən xilas oldu. Xalqın milli-mənəvi və mədəni dəyərləri özümüzə qaytarıldı. O zamanlar milli düşüncə sahibi olduqlarına görə təqib edilən ziyalıları ən çətin məqamlarda müdafiə etməyi qanı, canı, ruhu ilə milli köklərə bağlı olan Heydər Əliyev bacara bilərdi.

Tarixi hadisələrin sonrakı gedişi də sübut etdi ki, Heydər Əliyevin 1969-1982-ci illərdə gördüyü işlər gələcəkdə milli dövlətçilik ideyalarının hərəkətverici qüvvəyə çevrilməsi və cəmiyyətin bu ideya ətrafında səfərbər olması üçün şərait yaratdı. Həmin dövrdə respublikada bərqərar edilən əsl işgüzarlıq mühiti, sosial ədalətə əsaslanan sağlam mənəvi-psixoloji ab-hava iqtisadi tərəqqinin yüksək həddə çatmasına, Azərbaycanın keçmiş ittifaq miqyasında nüfuz qazanmasına, beynəlxalq səviyyədə tanınmasına imkan verdi. Ulu Öndər Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etdiyi dövrləri xatırlayarkən deyirdi: *"Biz sovet rejimində yaşayırdıq. Məgər biz bu rejimi dəyişə bilərdik? Amma iş ondadır ki, bu rejim altında olsa da, sən xalqın, millətin üçün nə edirsən. Əgər bu rejimi dəyişdirə bilmirsənsə, onda onun imkanlarından istifadə edib xalqına kömək göstər. Mən bunu etdim. Azərbaycan o illərdə çox yüksəklərə qalxdı"*.

Böyük şəxsiyyətləri tarix, zaman özü yetişdirir. Onlar öz əməlləri ilə tarixi yaradır, zənginləşdirir və dəyişdirirlər. Heydər Əliyevin 1993-cü ildə həyata keçirdiyi xilaskarlıq missiyası da bu deyilənləri təsdiq edir. Hələ sovet hakimiyyəti dövründə Azərbaycanı tənəzzüldən inkişaf yoluna çıxaran Heydər Əliyev müstəqilliyimizin kövrək olduğu 1993-cü ildə də tarixin gedişini dəyişdi. Öz müdrikliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və dəyanəti ilə müstəqilliyimizi qorudu. Ulu Öndərin bilavasitə rəhbərliyi altında, qətiyyətli siyasəti və dövlətçilik təcrübəsi sayəsində Azərbaycanın dövlət müstəqilliyinin etibarlı əsasları yaradıldı. Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidməti odur ki, o, ən kəskin geopolitik ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycanın dövlətçiliyini qorudu, ölkəni parçalanmaq təhlükəsindən xilas etdi. Bu gün xalqımızın bəhrəsini gördüyü uğurlu neft strategiyasının müəllifi də Heydər Əliyevdir. Eyni zamanda Heydər Əliyev hər bir sahə üzrə islahatın təməlini qoydu. Böhran həddində olan iqtisadiyyatımızda, sənayedə uğurlu islahatlar nəticəsində tərəqqiyə doğru inamlı dönüş yarandı. Hüquqi dövlət quruculuğu həyata keçirildi. Postsovet məkanında ilk dəfə olaraq Azərbaycanda effektli aqrar islahatlar aparıldı. Beləliklə, Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı indi uğurları ilə qürur duyduğumuz Azərbaycan dövlətinin yaranması ilə nəticələndi.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın möhtəşəm inkişaf salnaməsinin parlaq səhifələri yazılır. Heydər Əliyevin strateji inkişaf kursunu müasir mərhələyə uyğun zənginləşdirən dövlət rəhbərinin yürütdüyü məqsədyönlü siyasətin uğurları çağdaş Azərbaycanın şanlı tarixinə çevrilir. Cəmiyyət dinamik inkişaf edir, müasir dünyada gedən proseslərə uyğun olaraq Azərbaycanın sosial-iqtisadi həyatında, qanunlarında, insanların həyat tərzində, idarəçilikdə dəyişikliklər həyata keçirilir. İnsanların təfəkkür, düşüncə tərzi hazırkı dövrün çağırışlarına uyğun olaraq yeniləşir, müasirləşir.

Başqa sözlə, dövlətimizin qurucusu Heydər Əliyevin həyata keçirdiyi siyasət bu gün uğurla davam etdirilir. Ulu Öndər 16 ildir ki, haqq dünyasına qovuşub. Lakin onun ideyaları yaşayır, xalqımızı yeni-yeni qələbələrə, daha yüksək zirvələrə aparmaqda davam edir. Biz Ulu Öndərin Azərbaycanda siyasi rəhbərliyə başlamasının 50-ci ilini dövlətçilik tariximizin parlaq səhifələrini təşkil edən möhtəşəm nailiyyətlərlə qeyd edirik. Bəli, bu gün Azərbaycan bölgənin lideri, kosmik klubun üzvü, beynəlxalq enerji təhlükəsizliyində aparıcı dövlət, dünyada söz sahibidir. Əminik ki, yaşadığımız XXI əsrdə Azərbaycan bu yolla inamla irəliləyəcək, Heydər Əliyevin layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edəcək, güclənəcək və nailiyyətlərinin miqyasını artıracaqdır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Prezidentin müdrik siyasətinin böyük təntənəsi

Əvvəli 1-ci səh.



Dairəvi Tanrıçılıq abidəsi ilə tanışlıq zamanı XIX əsrdə işğalçıların bu abidəni saxtalaşdıraraq görkəmini dəyişməsindən necə təsirləndiyinin və "Tezliklə bu abidəni əvvəlki görkəminə qaytarın!" deməsinin şahidiyəm.

Heç yadımdan çıxmır. Prezident və Birinci xanım, Ərdoğan və xanımı Xan Sarayı və digər abidələrlə tanış olarkən birdən Ərdoğanın xanımı Əminə Ərdoğan Mehriban xanıma müraciətlə "Bu, misilsiz abidələrdir, onları UNESKO-nun qeydiyyatına saldırmaq haqqında düşünürsünüzmü" sualını verdikdə Mehriban xanım çox inamlı və qətiyyətli cavab verdi: "Biz artıq bu işə başlamışıq və məqsədimizə hökmən nail olacağıq!"

Şəkiyə nə qədər ekspertlər gəldi, nə qədər tövsiyələr oldu, Prezidentin qayğısı ilə nə qədər bərpa işləri görüldü. Nəhayət, 2019-cu ildə Azərbaycanın məşhur tarixi şəhəri haqqında UNESKO-nun qərarı Bakıda qəbul olundu! Bu qələbə münasibəti ilə bütün Azərbaycan xalqını təbrik etdiniz, cənab Prezident! Əslində isə təbrik Sizə düşür. Çünki bu, Sizin Vətən naminə yeritdiyiniz müdrik siyasətin qələbəsidir, yürütdüyünüz qətiyyətli siyasətin qələbəsi naminə Mehriban xanım Əliyevanın yorulmadan apardığı davamlı mübarizənin nəticəsidir. Bu qələbələr üçün xalqımız Zati-alinizə minnətdardır. Bu yolda Sizə, Mehriban xanım Əliyevaya yeni-yeni uğurlar arzulayıram!

Şəki tək tarixi abidələri ilə məşhur deyil, həm də tarixi şəxsiyyətlər yurdudur. Mirzə Fətəli Axundzadə, Salman Mümtaz, Bəxtiyar Vahabzadə, Sabit Rəhman, Şəfiqə Axundova və başqa çoxsaylı görkəmli şəxsiyyətlərimiz məhz Şəki torpağının yetirmələridir.

Bu gün Şəki Azərbaycanın tarixini, mədəniyyətini, mədəni irsini qoruyub saxlayan unikal bir şəhərdir. Şəki şəhəri 2008-ci ildə Dünya Tarixi Şəhərlər Liqasının üzvü seçilib, 2010-cu ildə Azərbaycanın Sənətkarlıq Paytaxtı, TÜRKSOY tərəfindən 2016-cı ilin Türk mədəniyyəti paytaxtı elan edilib, 2017-ci ildə isə UNESKO-nun "Yaradıcı şəhərlər şəbəkəsi" siyahısına salınıb.

**Yaqub MAHMUDOV,**
***Milli Məclisin deputatı, akademik***

# UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası işçi iclaslarını başa çatdırıb

## Ümumdünya İrs Komitəsinin 44-cü sessiyasına Çin Xalq Respublikası sədrlik edəcək



Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası iyulun 9-da öz işini davam etdirib.

AZƏRTAC xəbər verir ki, tədbiri açan sessiyanın təşkilat komitəsinin sədri, Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayev iştirakçılara plenar iclasdan əvvəl keçirilmiş büro iclası barədə məlumat verib. Bildirib ki, büro iclasında bu günlər ərzində görülən işlər, qəbul edilən qərarlar müzakirə edilib. İşçi qrup ciddi sənədlər hazırlayıb və onlar təsdiqlənməlidir. Bu gün büdcə əməliyyat layihələri ilə bağlı sənədlərə baxılacaq.

Müzakirələr zamanı Ümumdünya İrs Siyahısında olan Ekvadorun Qalapaqos milli parkı, Qvatemalanın Antiqua xristian dini məbədi, Nigeriyanın Aqades tarixi mərkəzi, Seyşel Adalarında yerləşən Valle-de-Mo təbii qoruğunun bərpası və konservasiyası, idarə olunması ilə bağlı beynəlxalq yardımın artırılmasının vacibliyi vurğulanıb.

Sonra maliyyə və inzibati məsələlər müzakirə olunub. 2018-2019-cu illər üçün büdcənin icrasına dair hesabat və Dünya İrs Fonduna 2020-2021-ci illər üçün büdcə təklifləri nəzərdən keçirilib. Bildirilib ki, sessiya çərçivəsində işçi qrupun bir sıra görüşləri olub və burada təkliflər səsləndirilib. Norveç, Tunis, Küveyt, Bəhreyn, Bosniya və Herseqovina və digər ölkələrin nümayəndələrinin çıxışları dinlənilib. İşçi qrupun işi müsbət qiymətləndirilib.

Daha sonra Ümumdünya İrs Komitəsinin prosedur qaydalarına dəyişikliklər müzakirə olunub. Bu qərar da qəbul edilib.

İclasın sonunda 2020-ci ildə Ümumdünya İrs Komitəsinin 44-cü sessiyasına Çin Xalq Respublikasının sədrlik edəcəyi və sessiyanın Fuçjou şəhərində keçiriləcəyi bildirilib.

Ümumdünya İrs Komitəsinin növbəti sessiyasına ölkəsinin sədrlik edəcəyini söyləyən Çinin Təhsil nazirinin müavini və UNESKO üzrə Milli Komissiyasının rəhbəri Tian Sue Jun bu etimada görə komitə üzvlərinə minnətdarlığını bildirib. O deyib: "Azərbaycan hökumətinə, xüsusən də Mədəniyyət Nazirliyinə Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına yüksək səviyyədə evsahibliyi etdiyinə görə təşəkkür edirəm. Eləcə də ölkənizin Şəki ilə bağlı nominasiyasının Ümumdünya İrs Siyahısına salınması münasibətilə xalqınızı təbrik edirəm. Bu, Azərbaycanın böyük uğurudur, tarixi mədəni irs nümunələrinizin təbliği və tanıdılması baxımından əhəmiyyətlidir. Azərbaycan bu cür beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi ilə bağlı böyük təcrübəyə malikdir. Sessiya müddətində biz bunun bir daha şahidi olduq. Ümumdünya İrs Komitəsinin Çində keçiriləcək 44-cü sessiyasında ölkənizin bu təcrübəsindən yararlanmaq niyyətindəyik".

UNESKO-nun dünya irsinin yaşadılması, gələcək nəsillərə çatdırılması üçün mühüm işlər gördüyünü bildirən Çinin Təhsil nazirinin müavini deyib ki, Bakıda müxtəlif xalqların mədəni irsinin qorunması üçün mühüm qərarlar qəbul edilib. "Bu seçim Çinin mədəni irsinə verilən böyük dəyərdir. Çalışacağıq ki, 44-cü sessiya da Bakıdakı kimi möhtəşəm və yaddaqalan olsun" deyə Çin rəsmisi vurğulayıb.

Sonra Fuçjou şəhərinin tanıtım videoçarxı nümayiş etdirilib. 44-cü sessiya iclaslarının sədri, sədr müavinləri və məruzəçilər, sessiyanın müvəqqəti gündəliyi təsdiq edilib.

Bununla da UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası işçi iclaslarını başa çatdırıb.

İyulun 10-da UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının bağlanış iclasında tədbirin yekun sənədi qəbul ediləcək.

# Tian Sue JUN: "Çin Dünya İrs Komitəsinin 44-cü sessiyasında Azərbaycanın təcrübəsindən yararlanmaq niyyətindədir"

Azərbaycan bu cür beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi ilə bağlı böyük təcrübəyə malikdir. Sessiya müddətində biz bunun bir daha şahidi olduq. Çində keçiriləcək Dünya İrs Komitəsinin 44-cü sessiyasında ölkənizin bu təcrübəsindən yararlanmaq niyyətindəyik.



AZƏRTAC xəbər verir ki, bu sözləri Çinin Təhsil nazirinin müavini, bu ölkənin UNESCO üzrə Milli Komissiyasının rəhbəri Tian Sue Jun söyləyib.

UNESKO-nun Ümumdünya İrs Komitəsinin növbəti sessiyasına ölkəsinin sədrlik edəcəyini söyləyən Tian Sue Jun deyib: "Azərbaycan hökumətinə, xüsusən də Mədəniyyət Nazirliyinə bu tədbirə yüksək səviyyədə evsahibliyi etdiyinə görə təşəkkür edirəm. Eləcə də ölkənizin Şəki ilə bağlı nominasiyasının Dünya İrs Siyahısına salınması münasibətilə xalqınızı təbrik edirəm. Bu, ölkənizin böyük uğurudur, tarixi mədəni irs nümunələrinizin təbliği və tanıdılması baxımından əhəmiyyətlidir".

# Milli dövlətçilik maraqlarının və ictimai-siyasi sabitliyin qorunması başlıca məqsəddir

Müstəqil Azərbaycan son illər təkcə sosial-iqtisadi deyil, ictimai-siyasi sabitlik, xüsusilə də dini-milli tolerantlıq və multikulturalizm sahəsində qazandığı uğurlarla da dünyanın diqqətini cəlb edir. Fərqli dinlərə, etnik toplumların mədəni və mənəvi dəyərlərinə liberal yanaşma xalqımızın qədim zamanlardan formalaşmış ali keyfiyyətlərindən olaraq cəmiyyətdə sivil harmoniyanın, təhlükəsizlik mühitinin yaranmasını təmin etmişdir.



Dünyada dini-milli zəmində qarşıdurmaların artdığı bir dönəmdə respublikamızda dini radikalizm və ekstremizm meyillərinə münbit zəminin olmadığı, buna uğursuz cəhdlərin isə zamanında aşkarlanaraq xalqla hakimiyyətin möhkəm mənəvi birliyi nəticəsində əzmlə aradan qaldırıldığı danılmaz həqiqətdir. 2018-ci ilin iyul ayında Gəncə şəhərində bir qrup dini-radikal və ekstremist qrupun ölkədə ictimai-siyasi sabitliyi pozmaq, dövlətin konstitusion əsaslarını sarsıtmaq, hakimiyyəti qəsb etmək cəhdlərinin qarşısının qətiyyətlə alınması bunu bir daha təsdiqləyir.

Bir il əvvəl - 2018-ci il iyulun 3-də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına və onun mühafizəçisinə qarşı odlu silahla törədilmiş suiqəsd, terror aktı törətmək yolu ilə hakimiyyətin mövcud quruluşunun zorakı yolla dəyişdirilməsinə yönəlmiş daha bir cəhd kimi qiymətləndirilmişdir. Bir necə gün sonra - iyulun 10-da isə 150-200 nəfərdən ibarət radikal dini qruplaşmanın icra hakimiyyətinin inzibati binasının önündəki meydana toplaşaraq asayişi kobud şəkildə pozması, xidməti vəzifələrini yerinə yetirən 2 polis zabitinin amansızlıqla qətlə yetirilməsi respublikada şəriət qanunları ilə idarə olunan dövlət qurmaq, cəmiyyətdə ajiotaj, xaos, vahimə yaratmaq, nəticə etibarı ilə hakimiyyətin zorla ələ keçirilməsini təşkil etmək kimi çirkin planın tərkib hissələri idi.

Dövlət başçısı cənab İlham Əliyev Gəncə hadisələrindən sonra haqlı olaraq demişdir ki, dini-ekstremist qüvvələrin daxildə ictimai-siyasi sabitliyi pozmaq, bu yolla respublikanın beynəlxalq imicinə zərbə vurmaq cəhdləri heç zaman baş tutmayacaqdır: *"Bizim müstəqillik tariximizdə ölkəmizə qarşı bir neçə dəfə belə təxribatlar törədilmişdir, o cümlədən silahlı təxribatlar, terror aktları, dövlət çevrilişlərinə cəhd. Onların biri də baş tutmadı. Bunun başlıca səbəbi ondan ibarətdir ki, Azərbaycanda xalq-iqtidar birliyi var. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm, xalq-iqtidar birliyi sabitliyimizin əsas şərtidir. Xalq-iqtidar birliyini heç bir qüvvə - nə xarici, nə daxili qüvvə sarsıda bilməz".*

Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, Administrasiyanın İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun "AZƏRTAC" informasiya agentliyi tərəfindən yayılmış **"Dövlətin təhlükəsizliyi və milli maraqlar hər şeydən üstün olmalıdır"** sərlövhəli yazısındakı açıqlaması isə Gəncə hadisələrinə və onun ildönümü ilə əlaqədar müəyyən destruktiv qüvvələrin fəallaşmaq cəhdlərinə bir daha obyektiv işıq saldı. Dini ekstremizmin bütün təzahürlərinin yolverilməz olduğunu, belə qruplaşmaların fəallaşmaq cəhdlərinin qarşısının bundan sonra da qanun çərçivəsində alınacağını diqqətə çəkən Əli Həsənov haqlı olaraq yazır: *"Azərbaycan dövlətçiliyinə qarşı qəsd aktı kimi dəyərləndirilən Gəncə hadisələrindən bir il ötür. Keçən müddətə aparılmış istintaq tədbirləri nəticəsində ortaya çıxan faktlar bir daha təsdiqlədi ki, Gəncə hadisələri bəzi dövlətlərin radikal klerikal dairələrinin, separatçıların və ölkə daxilində siyasi fəaliyyət pərdəsi altında şəxsi ambisiyalarını həyata keçirmək istəyən qrupların dövlət və milli maraqlarımıza qarşı birgə məkrli təxribatı idi. Mediada, xüsusən sosial mediada geniş yayılmış məlumatlardan görünür ki, həmin qüvvələrin ötən il reallaşdırmağa çalışdıqları ssenarinin puç edildiyi, vətəndaşlarımızın dövlətçiliyin keşiyində durduğunu nümayiş etdirdiyi Gəncə hadisələrinin ildönümü ilə əlaqədar üzvlərinin əksəriyyətini Azərbaycanın keçmiş vətəndaşları təşkil edən, radikal islamçı qruplaşmalardan biri yenidən fəallaşıb".*

Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi haqlı olaraq vurğulayır ki, Gəncə hadisələrinin ildönümü ilə əlaqədar qruplaşmanın sosial şəbəkələrdəki səhifə və profillərində, habelə bəzi dövlətlərin klerikal dairələri tərəfindən idarə olunan saytlarda fəallaşması birmənalı olaraq ifrat dini radikallığın, fundamentalizmin dəstəklənməsidir. Açıqlamada, həmçinin təəssüflə vurğulanır ki, özlərinin demokrat və dünyəvi dövlət tərəfdarı olduqlarını iddia edən bəzi müxalifət liderlərinin və fəallarının terroru təşviq edən belə bir kampaniyaya dəstək verməsi, ifrat ekstremizmi özünə ideologiya seçmiş xarici qruplaşmaların istifadə etdiyi şüarları təkrarlaması ölkəmizin çoxəsrlik dini dözümlülük mühitini, tolerant imicini şübhə altına almaq məqsədi güdür. Demokratiya dəyərlərinə sadiq olduğunu iddia edən ifrat radikal müxalifətin, əslində, həmin dəyərlərə qənim kəsilənləri, radikalizmi, ifrat dini fundamentalizmi dəstəkləməsi onların əsl mahiyyətini bir daha nümayiş etdirir.

Şübhəsiz, xaricdəki anti-milli qüvvələrlə bağlı dini-ekstremist qrupları, eləcə də dövlət və xalq mənafeləri əleyhinə olan bütün destruktiv prosesləri nümayişkəranə şəkildə dəstəkləyən ifrat radikal müxalifətin son vaxtlar apardığı kampaniya Azərbaycanda insanların guya "dini baxışlarına görə təqiblərə məruz qalmaları" kimi saxta və əsassız təsəvvür formalaşdırmağa xidmət edir. Halbuki bu gün Azərbaycanda mövcud olan tolerant və multikultural mühit bütün səmavi dinlərin, xüsusilə də xalqımızın əsrlər boyu qəlbən tapındığı islami dəyərlərin geniş yayılmasına və təbliğinə tam təminat verir. Ölkəmiz islam həmrəyliyi istiqamətində ardıcıl siyasət yürütməklə, dini-mənəvi dəyərlərin təkcə islam coğrafiyasında deyil, bütövlükdə dünyada birgəyaşayış və sabitlik mühiti formalaşdıran təsirli vasitə olduğuna inamı möhkəmləndirir.

Azərbaycanın ciddi şəkildə dəstəklədiyi islam həmrəyliyi ideyası, dövlət başçısının sərəncamı ilə 2017-ci ilin Azərbaycanda "İslam həmrəyliyi ili" elan edilməsi dünyada gərginliklərin, münaqişə ocaqlarının sürətlə artdığı indiki dövrdə insanları sülh və barışa, əməkdaşlığa çağıran nəcib təşəbbüs olmuşdur. Xüsusi vurğulamaq lazımdır ki, respublikamız müstəqilliyi dövründə vicdan azadlığının təmini sahəsində də böyük uğurlara imza atmışdır. Əgər SSRİ dövründə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərirdisə, hazırda onların sayı 2200-ə çatmışdır. Təkcə Bakı şəhərində 140-dək məscid fəaliyyətdədir. Hazırda ölkədə 300-dən çox məscid dövlət tərəfindən tarixi abidə kimi qorunur. Bibiheybət Məscid-Ziyarətgah Kompleksi, Təzəpir məscidi, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidləri, Əjdərbəy məscidi, Heydər məscidi, Şamaxı Cümə məscidi, Gəncə "İmamzadə" Kompleksi və onlarla digər dini abidə və məscid dövlət tərəfindən əsaslı şəkildə təmir və bərpa edilərək dindarların istifadəsinə verilmişdir.

1995-ci ildə Azərbaycanda ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyada hər bir ölkə vətəndaşının vicdan azadlığı birmənalı təsbit edilmişdir. Belə ki, Əsas Qanunun 48-ci maddəsində (Vicdan azadlığı) göstərilir ki, "...Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək; hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək; yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır. Dini mərasimlərin yerinə yetirilməsi, ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyilsə, sərbəstdir".

Konstitusiyamızın 18-ci maddəsinin 1-ci və 3-cü bəndlərində göstərilir ki, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır, bütün dini etiqadlar qanun qarşısında bərabərdir, insan şəxsiyyətini alçaldan, insanlıq prinsiplərinə zidd olan dinləri yaymaq və təbliğ etmək qadağandır. Bundan əlavə, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu hər bir şəxsin dinə münasibətini müəyyənləşdirmək və ifadə etmək hüququna, bu hüququ həyata keçirməyə təminat yaradır.

Azərbaycan bu gün dünyanın nadir ölkələrindən biridir ki, burada nəinki islami, digər səmavi dinlərin təbliği ilə məşğul olan, qanuni əsasda fəaliyyət göstərən bütün dini qurum və konfessiyalara dövlət büdcəsindən maddi yardımlar edilir. Bunda məqsəd həmin qurumların merkantil maraqlarını güdən müxtəlif dağıdıcı-destruktiv qüvvələrin təsiri altına düşməsinə, dini dəyərlərdən çirkin məqsədlər naminə istifadə edilməsinə yol verməməkdir. Ümumilikdə respublikamız insanlığın nicatına, humanizmə, insanpərvərliyə çağırış edən bütün sağlam dini qurumların fəaliyyətinə normal şərait yaratsa da, ifrat radikalizmi, ekstremizmi, zorakılığı təşviq edən, qeyri-qanuni mübarizə üsullarına, terrora cəhdlər göstərən dini-klerikal qruplaşmalara qarşı qanun çərçivəsində barışmaz mövqe tutur.

Müasir dünya təcrübəsi göstərir ki, dini terrorizmin "ideoloqları" öz hədəflərinin guya "Tanrı tərəfindən müəyyənləşdirildiyini" iddia edərək, coğrafi, etnik və sosial müstəvilərdə ayrı-ayrı hədəflərə qarşı hücumlar təşkil edir və qısa zaman kəsiyində qlobal səviyyəli kardinal dəyişikliklərə nail olmaq istəklərini gizlətmirlər. Son illərdə zərərsizləşdirilən Üsamə bin Ladenin rəhbərlik etdiyi "Əl-Qaidə" təşkilatı, sünni müsəlmanların birləşdiyi "HƏMAS" qruplaşması, mərkəzi qərargahı Livanda olan "Hizbullah" şiə təşkilatı, ABŞ-da "Ku-klus-klan"çıların yaratdığı "xalq drujinaları", Yaponiyada fəaliyyət göstərən "Aum Sinrikyö" təşkilatı, Suriya və İraqın ərazisində mütəşəkkil silahlı qruplaşmalar formalaşdıran "İŞİD" dediklərimizə əyani sübutdur.

Ümumilikdə Yaxın Şərqdə və digər regionlarda baş verənlər ölkəmizin milli təhlükəsizliyi baxımından dini sahədə dövlət tənzimlənməsinin vacibliyini, qanunvericiliyin təkmilləşdirilməsini, hüquqi, siyasi və ideoloji təsir metodlarından geniş istifadəni zərurətə çevirir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-cü maddəsinə (terrorçuluq) yeni bir hissə əlavə edilmişdir (214.2.6). Bu əlavəyə görə, dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində terrorçuluq artıq müstəqil cinayət tərkibi kimi müəyyən edilir və çox ciddi cəzalandırılır. Təəssüf ki, bəzi dövlətlər bu müsbət təcrübədən istifadə etməmiş, cinayət qanunvericiliklərində oxşar tərkibli cinayətlər nəzərdə tutmamışlar.

Heç kimə sirr deyildir ki, bir çox dövlətlərin vətəndaşları müxtəlif din pərdəsi arxasında gizlənərək terror hadisəsi törətmək, silahlı münaqişələrdə iştirak etmək məqsədilə digər dövlətlərə miqrasiya edirlər. Geri döndükdə isə, psixoloji durumu dəyişmiş, dini ekstremizm meyilli, ölkə üçün təhlükəli bir vətəndaşa çevrilirlər. Belə hallarla cinayət hüququ mübarizə məqsədilə Cinayət Məcəlləsinin 283-1 maddəsində dəyişiklik edilərək qeyd edilmişdir ki, Azərbaycan Respublikası vətəndaşlarını və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsləri, dini məzhəbləri yaymaq, dini ayinlərin icrası adı altında, yaxud dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb etmə, yaxud bu məqsədlə döyüş təlimləri keçirmə, yaxud həmin məqsədlə fəaliyyət göstərən sabit qrup yaratma və ya belə qrupa rəhbərlik etmə 9 ildən 12 ilədək müddətdə azadlıqdan məhrumetmə ilə cəzalandırılır və s.

2015-ci il dekabrın 4-də ölkə prezidenti tərəfindən imzalanmış "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanunu isə ölkədə dini ekstremizmə qarşı mübarizənin hüquqi və təşkilatı əsaslarını müəyyən etmək, dini ekstremizm əleyhinə mübarizəni həyata keçirən dövlət orqanlarının və vətəndaşların hüquq və vəzifələrini müəyyənləşdirmək məqsədindən irəli gəlmişdir. 15 maddədən ibarət qanunun birinci fəslinin birinci maddəsində göstərilir ki, dini ekstremizm (dini ekstremist fəaliyyət) dedikdə, dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində Azərbaycan Respublikası Konstitusiya quruluşunun, o cümlədən onun dünyəvi xarakterinin zorla dəyişdirilməsinə, ərazi bütövlüyünün parçalanmasına, yaxud hakimiyyətin zorla ələ keçirilməsinə yönələn hərəkətlərin törədilməsi; qanunsuz silahlı birləşmələrin və ya qrupların yaradılması, həmin birləşmə və ya qruplarda iştirak edilməsi; terror fəaliyyətin həyata keçirilməsi; Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak edilməsi; milli, sosial və ya dini nifrətin salınması, milli ləyaqətin alçaldılması, milli, irqi, sosial və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlərin törədilməsi; şəxsin hər hansı dinə (dini cərəyana) etiqad etməyə, o cümlədən dini ayin və mərasimləri yerinə yetirməyə və ya dini ayin və mərasimlərdə iştirak etməyə, habelə dini təhsil almağa məcbur edilməsi və sair başa düşülür. Qanunun 8-ci maddəsində qeyd edilir ki, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zamanı dini ekstremistlərin həyatına, sağlamlığına və ya əmlakına ziyan vurulmasına yol verilir. Bu zaman dini ekstremizmə qarşı mübarizədə iştirak edən şəxs dini ekstremistlərin həyatına, sağlamlığına və ya əmlakına vurulmuş ziyana görə məsuliyyət daşımır. Düşünürəm ki, qanunun bu xəbərdaredici funksiyasından nəticə çıxarma haqqında hər kəs düşünməlidir.

Gəncə hadisələrinin ildönümü ərəfəsində respublikamızdakı ekstremist-dini qruplaşmaların fəallaşması, radikal müxalifətin isə asayişi kobud şəkildə pozduqlarına, dövlət çevrilişinə cəhd göstərdiklərinə görə həbs olunmuş şəxslərin aşkar müdafiəsinə qalxması, əslində, Azərbaycanda ictimai-siyasi sabitliyə və dövlətin konstitusion əsaslarının sarsıdılmasına yönəlmiş növbəti destruktiv addımlardır. Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov **"Dövlətin təhlükəsizliyi və milli maraqlar hər şeydən üstün olmalıdır"** sərlövhəli yazısında haqlı olaraq demişdir: *"...Müxalifətə, görəsən, hansı Azərbaycan gərəkdir? Dünyanın inkişaf etmiş ölkələri sırasında yer alan, sabit, qüdrətli və demokratik Azərbaycan, yoxsa Sudan, Somali, Liviya, Suriya və s. ölkələr kimi amansız daxili savaşın, qanlı xaosun, faciəvi vətəndaş qarşıdurmasının və terror qruplaşamalarının tüğyan etdiyi poliqon? Bəlkə onlar Azərbaycanı orta əsrlərin qaranlıq dövrünə qaytarmaq, ölkəmizi şəriət qanunları ilə idarə olunan məkana çevirmək istəyirlər?"*

Ötən il Gəncədə baş vermiş zorakı hadisələri təhlil edən professor Əli Həsənov onu da bildirir ki, demokrat və dünyəvi olduqlarını vurğulayanlar anti-Azərbaycan dairələrini və onların ölkəmizdəki uzantılarını qınamaq əvəzinə terror aktlarına görə həbs olunmuş şəxsləri qəhrəmanlaşdırır, merkantil maraqların təminatı, yeni maliyyə imkanları əldə etmək naminə onları vicdan məhbusu elan edərək xüsusi siyahılara salır, azadlığa buraxılmalarına çalışırlar. Əslində, bu cür davranışın ifrat radikal müxalifətin ənənəvi qeyri-sivil və çirkin mübarizə üsullarından irəli gəldiyini də xüsusi qeyd etmək lazımdır.

Cənab Əli Həsənovun vurğuladığı kimi, həmin qüvvələrin yenidən fəallaşmasının müəyyən geosiyasi reallıqlarla bağlı olduğu və Azərbaycanla bağlı mühüm yeniliklərin gözlənildiyi dönəmə təsadüf etməsi də diqqətdən yayınmamalıdır: *"Bu gün terroru təbliğ edən radikalların və onların havadarlarının yenidən fəallaşması, Azərbaycana təhdidlər ünvanlamaları isə Gəncə hadisələrinin ildönümü ilə yanaşı, TANAP-ın istifadəyə veriləcəyi vaxta təsadüf edir. Qəribə deyil ki, Azərbaycan dövləti və onun müstəqil siyasətinin əleyhinə son dövrlərdə Ermənistan, bəzi dövlətlərdəki klerikal dairələr, ekstremistlər, xarici ölkələrə qaçmış, sadəcə, pula və məişət rahatlığının təminatına can atan bəzi azərbaycanlılar tərəfindən aparılan təmərküzləşmiş, təhlükəli ideoloji təxribat bu günlərdə yenidən canlanıb".*

Cərəyan edən hadisələrin təhlili zamanı ən ümumi qənaət bundan ibarətdir ki, Azərbaycanın müstəqil, qüdrətli, iqtisadi cəhətdən güclü, ictimai-siyasi baxımdan sabit ölkə olması, ölkəmizdə dini və etnik zəmində hər hansı qarşıdurmanın baş verməməsi müəyyən qüvvələri ciddi narahat edir. Bu dini-ekstremist qüvvələr bir qayda olaraq fəaliyyətlərini daxili deyil, xarici maraqlara uyğun qurmağa, çirkin yolla maliyyə vəsaitləri əldə etməyə, Azərbaycanın beynəlxalq imicinə, mənafelərinə zərbə vurmağa, daxildə ictimai-siyasi vəziyyəti gərginləşdirməyə və son nəticədə məkrli niyyətlərini reallaşdırmağa çalışırlar. Lakin cəmiyyətdə din pərdəsi altında müəyyən dövlətlərin geosiyasi maraqlarının ifadəçisinə çevrilən, cəmiyyətdə xaosun və kataklizmlərin yaranmasına çalışan destruktiv qüvvələrin heç bir sosial bazasının olmadığı, onların dövlətin gücü qarşısında son dərəcə aciz olduqları da xüsusi qeyd edilməlidir. Şübhəsiz, ölkənin hüquq mühafizə orqanlarının indiyə qədər olduğu kimi, bundan sonra da ictimai-siyasi sabitliyi pozmağa, dövlətin demokratik imicinə xələl gətirməyə, qəsdən qarşıdurma yaratmağa xidmət edən bütün ekstremist qruplara qarşı qanun müstəvisində barışmaz mövqe tutacaqlarını əminliklə demək olar. Odur ki, belə qəsdlərlə, ucuz təbliğat üsulları ilə vətəndaşların dövlətə və hakimiyyətə olan etimadını zəiflətmək, ölkədə kriminogen vəziyyəti gərginləşdirmək mümkün deyildir.

Azərbaycanın yaxın tarixi keçmişi də sübut etmişdir ki, dövlətçiliyə edilmiş qəsdlər hakimiyyətin xalqla birliyi sayəsində fiasko ilə nəticələnir. Azərbaycan Prezidenti cənab İlham Əliyev dövlətə rəhbərliyinin ilk günlərindən milli maraq və həqiqi müstəqillik anlayışlarının Azərbaycan üçün həyati və prinsipial əhəmiyyət daşıdığını, respublikamızın hansısa dövlətin və geosiyasi güc mərkəzinin təsiri altına düşməyəcəyini, hərbi-siyasi platsdarm rolunu oynamayacağını qətiyyətlə bəyan etmişdir. Postsovet məkanında "məxməri inqilab dalğaları" üzərində hakimiyyətə yiyələnmiş bəzi "liderlər"in zorakı yolla hakimiyyətdən uzaqlaşdırılması, bəzilərinin hətta öz ölkələrinin parçalanmasına gətirib çıxarmış ciddi siyasi səhvlərə yol verməsi fonunda Azərbaycan son 16 ildə öz praqmatik, qətiyyətli liderinin rəhbərliyi altında daxili sabitlik və dinamik inkişaf xəttini qoruyub saxlamış, qlobal maliyyə-iqtisadi böhranı şəraitində makroiqtisadi irəliləyişlərə nail olmuşdur.

*Azərbaycan Prezidenti cənab İlham Əliyevin yürütdüyü məqsədyönlü daxili və xarici siyasət nəticəsində müstəqil dövlətimizin öz siyasi dəstxəti, dövlətçilik siması, milli inkişaf yolu formalaşmışdır. İnsanlarımız tam əmindirlər ki, bu siyasət nəticəsində ölkəmizdə ictimai-siyasi sabitlik, əmin-amanlıq, tolerantlıq bundan sonra da qorunacaq, Azərbaycan inkişaf etmiş ölkələrlə eyni sırada dayanacaqdır.*

**İsaxan VƏLİYEV,**
***Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, hüquq elmləri doktoru***

# Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyinə həsr olunmuş VI müşavirə keçirilib




İyulun 9-da Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyinə həsr olunmuş VI müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Prezident İlham Əliyevin Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyinə həsr olunmuş VI müşavirənin iştirakçılarına təbrik məktubunu oxuyub (Məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur).

Müşavirədə çıxış edən Xarici İşlər naziri Elmar Məmmədyarov Azərbaycan diplomatiyasının bir əsrlik inkişaf yolu, müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə yeni yaranmış respublikanın tanıdılması istiqamətində atılmış addımlar, cümhuriyyətin süqutundan sonra sovet dövründə Xarici İşlər Komissarlığının fəaliyyəti və nəhayət, müstəqilliyini bərpa edən müasir Azərbaycan Respublikasının təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda Prezident İlham Əliyevin müvəffəqiyyətlə davam etdirdiyi, milli maraqlarımıza əsaslanan dinamik və fəal xarici siyasətimiz barədə danışıb.

Nazir qeyd edib ki, 100 il bundan öncə Birinci Dünya müharibəsindən sonra cərəyan edən gərgin bir dövrdə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin maraqlarını beynəlxalq aləmdə layiqincə təmsil etmək üçün müsəlman Şərqində ilk respublikanın Xarici İşlər Nazirliyi təsis edilmişdir. Şübhəsiz ki, Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən çoxşaxəli diplomatik fəaliyyətə başlamış, lakin Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimatın qəbul olunması məhz 9 iyul 1919-cu il tarixinə təsadüf etdiyindən, Azərbaycan Respublikası Prezidentinin 2356 saylı, 24 avqust 2007-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü təsis olunmuşdur. Sovet işğalı nəticəsində cümhuriyyətimizin qısa ömür yaşamasına baxmayaraq, ilk respublikanın Xarici İşlər Nazirliyinin diplomatik heyəti geniş təcrübəyə yiyələnmiş, mühüm nailiyyətlər əldə etmiş və müstəqil xarici siyasət fəaliyyətimizin əsasını qoymuşdur. 1991-ci ildə Sovet İttifaqının süqutu ilə Azərbaycan xalqı öz milli istiqlaliyyətini yenidən bərpa edə bilmişdir. Ermənistanın hərbi təcavüzünə məruz qalmış, ağır iqtisadi böhran və kəskin daxili çaxnaşmaların hökm sürdüyü Azərbaycanın bu mürəkkəb vəziyyətdən çıxacağına o zaman bir çoxları inanmırdı. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın çağırışı ilə hakimiyyətə qayıdışı Azərbaycanda sabitlik və inkişafın təməlini qoydu. Ulu Öndərin əsas məqsədi Azərbaycanı daha qüdrətli və zəngin dövlətə çevirmək, dünya birliyində nüfuzunu daha da möhkəmləndirmək və əsl söz sahibinə çevirmək idi və bu hədəflərə də şərəflə nail olundu.

Nazir vurğulayıb ki, bünövrəsi Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş, milli maraqlarımıza əsaslanan Azərbaycanın müasir xarici siyasət strategiyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu gün müvəffəqiyyətlə davam etdirilir. Yerləşdiyi region ətrafında cərəyan edən ziddiyyətli proseslər şəraitində ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində daxili sabitlik və inkişafını təmin etmək, iqtisadiyyatını müsbət artım dinamikasına kökləmək və irimiqyaslı layihələr həyata keçirməklə beynəlxalq səviyyədəki mövqe və nüfuzunu daha da möhkəmləndirməyə müvəffəq olub.

Elmar Məmmədyarov qeyd edib ki, Azərbaycan Respublikasının xarici siyasət fəaliyyəti, ilk növbədə, ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsi, onun beynəlxalq sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünün bərpa edilməsi, milli maraqlarımızın beynəlxalq müstəvidə təmin edilməsinə xidmət edən bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri üzərində qurulub. Bu gün beynəlxalq ictimaiyyət birmənalı şəkildə Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsində onun suverenliyi və ərazi bütövlüyünü dəstəkləyir. Ermənistanın işğalçı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılması və münaqişənin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əsasında həll olunması BMT-nin Təhlükəsizlik Şurası və Baş Assambleyasının məlum qətnamələri ilə yanaşı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərarlarında da öz əksini tapır.

Nazir deyib ki, ötən müşavirədən keçən dövr ərzində Azərbaycan Respublikasının Əlcəzairdə və İraqda səfirlikləri, Kolumbiya, Çili, Uruqvay və Peruda diplomatik ofisləri açılıb, Avstriya, Sudan, Cibuti, Paraqvay, İtaliya və Maltada yeni fəxri konsulluqları fəaliyyətə başlayıb. Azərbaycanda isə Peru, Kosta-Rika, Meksika, Venesuela və Çilinin səfirlikləri, Əlcəzair, Portuqaliya, Xorvatiya, Estoniya və Monteneqronun diplomatik ofisləri, həmçinin San-Marino, Sloveniya, Makedoniya və Efiopiyanın fəxri konsulluqları açılıb. Azərbaycan Respublikası ilə Tanzaniya Respublikası, Vanuatu Respublikası, Baham Adaları Birliyi, Samoa Dövləti, Palau Respublikası, San-Tome və Prinsipi Demokratik Respublikası arasında diplomatik münasibətlər qurulub. Hazırda Azərbaycan Respublikasının xarici dövlətlərdə 59 səfirliyinin, 5 beynəlxalq təşkilat yanında daimi nümayəndəliyinin, 9 baş konsulluğunun, 11 təmsilçilik ofisinin və 15 fəxri konsulluğunun fəaliyyət göstərdiyini deyən E.Məmmədyarov əlavə edib ki, ölkəmizdə isə 66 dövlətin səfirliyi, 4 baş konsulluq, 13 fəxri konsulluq və 22 beynəlxalq təşkilatın nümayəndəliyi mövcuddur.

Nazir bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Xarici İşlər Nazirliyi bundan sonra da beynəlxalq münasibətlər sistemində Azərbaycanın dövlət maraqları və milli mənafeyinin layiqincə qorunması və təmin olunması istiqamətində müstəqil və çevik xarici siyasət fəaliyyətini davam etdirəcək.

# Xarici İşlər Nazirliyinin kollektivi Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib

Azərbaycan Respublikasının diplomatik xidmətinin yaradılmasından 100 il keçir. 1919-cu il iyulun 9-da Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyi Katibliyinin yaradılmasına dair qərarın qəbul edilməsi dövlətimizin peşəkar diplomatik xidmətinin başlanğıcı hesab olunur.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə böyük önəm verən Ulu Öndər Heydər Əliyev diplomatiyamızın sağlam əsaslara söykənməsinə daim diqqət və qayğı göstərib.

Ümummilli Liderin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin 2007-ci il 24 avqust tarixli fərmanı ilə 9 iyul Azərbaycan diplomatlarının peşə bayramı günü elan edilib. Bu, dövlət başçısının Azərbaycan diplomatiyasına və diplomatlarına diqqət və qayğısının bariz nümunəsidir.

AZƏRTAC xəbər verir ki, diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı münasibətilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin kollektivi iyulun 9-da Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra nazirliyin kollektivi Şəhidlər xiyabanına gedərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

# Diplomatik xidmət orqanları rəhbərlərinin VI müşavirəsinin iştirakçıları Prezident İlham Əliyevə müraciət ünvanlayıblar

Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin VI müşavirəsinin iştirakçıları Prezident İlham Əliyevə müraciət ünvanlayıblar.

AZƏRTAC xəbər verir ki, müraciətdə əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş, Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən qətiyyətli daxili və müstəqil xarici siyasət nəticəsində Azərbaycan Respublikasının iqtisadi inkişafı və hüquqi dövlət quruculuğu sahəsində böyük nailiyyətlər əldə olunduğu bildirilir. Vurğulanır ki, dövlət başçısının rəhbərliyi altında ölkəmizin təşəbbüsü və iştirakı ilə regional və beynəlxalq əhəmiyyətli layihələr həyata keçirilib, həmçinin mühüm strateji enerji və nəqliyyat-kommunikasiya layihələrinin icrası davam edir.

Qeyd edilir ki, cari ilin Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının yaranmasının 100 illiyinə təsadüf etdiyi nəzərə alınaraq, diplomatik xidmət orqanları tərəfindən yubileylə bağlı bir sıra tədbirlər keçirilir. Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının yaranmasının 100 illiyi tədbirləri çərçivəsində, həmçinin iyulun 9-da diplomatik xidmət orqanları rəhbərlərinin VI müşavirəsi keçirilib. Müşavirədə dövlət başçısının diplomatik xidmət orqanları qarşısında qoyduğu xarici siyasət xəttinin həyata keçirilməsi istiqamətində vəzifə və tapşırıqlar yekdilliklə dəstəklənib. Fəaliyyətin bu tələblər çərçivəsində həyata keçirilməsi üçün səylər artırılacaq.

Müraciətdə bildirilir ki, yerləşdiyi region ətrafında cərəyan edən ziddiyyətli proseslərə baxmayaraq, ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində daxili sabitlik və inkişafını təmin etmək, iqtisadiyyatının müsbət artım dinamikasına nail olmaqla və irimiqyaslı layihələr həyata keçirməklə beynəlxalq səviyyədəki mövqe və nüfuzunu daha da möhkəmləndirib. Azərbaycan Respublikasının xarici siyasəti, ilk növbədə, ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsi, onun beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünün bərpa edilməsi, milli maraqlarımızın beynəlxalq müstəvidə təmin edilməsinə xidmət edən bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri üzərində qurulub. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasının diplomatik xidmət orqanları bundan sonra da beynəlxalq münasibətlər sistemində Azərbaycan dövlətinin maraqları və milli mənafeyinin layiqincə qorunması və təmin olunması istiqamətində müstəqil və çevik fəaliyyətini davam etdirəcək. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə son qoyulması, torpaqlarımızın işğaldan azad edilməsi, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün bərpa edilməsi və məcburi köçkünlərimizin öz yurd-yuvalarına qayıtması diplomatiyamızın ən başlıca vəzifəsidir.

Müraciətdə diplomatik xidmət orqanlarına göstərdiyi daimi diqqət və qayğıya görə Prezident İlham Əliyevə dərin təşəkkür ifadə olunur: "Sizi əmin edirik ki, Azərbaycan diplomatiyasının 100 illik tarixi irsini və ənənələrini bundan sonra da layiqincə davam etdirəcək, milli maraqlarımızın beynəlxalq müstəvidə təmin edilməsi istiqamətində səylərimizi əsirgəməyəcəyik".

# Hərbi Dəniz Qüvvələrinin yeni infrastruktur obyektinin açılışı olub



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən Hərbi Dəniz Qüvvələrinin (HDQ) şəxsi heyətinin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər davam etdirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti HDQ-nin hərbi hissələrindən birində yeni inşa edilən infrastruktur obyektinin açılışında iştirak edib və burada yaradılan şəraitlə tanış olub.

Müdafiə naziri qərargah, matros yataqxanaları, tibb məntəqəsi, digər xidməti və inzibati otaqlara, eləcə də ərazidəki qurğu və avadanlıqlara baxış keçirib.

Məruzə olunub ki, yaradılan şərait şəxsi heyətin hərbi hissə qarşısında qoyulan vəzifə və tapşırıqları daha keyfiyyətli və effektiv icra etməsinə imkan yaradacaq.



**Elə insanlar var ki, onlar yalnız yüksək intellekti, istedadı, müdrikliyi və əməksevərliyi sayəsində ucalır və böyük hörmət sahibi olurlar. Halallığı, düzlüyü özlərinə yol yoldaşı seçən bu insanlar heç vaxt haram tikə yeməzlər, həyatlarının mənasını öz peşələri ilə xalqa xidmətdə görərlər. Zaman keçdikcə ömrü kitablaşan, dastanlaşan, şəxsiyyəti ictimailəşən belə insanların müasiri olmağından, onlarla bir yerdə, bir amal uğrunda çalışmaqdan qürur duyur, iftixar hissi keçirirsən. Belə insanların həyat yolu çoxlarına nümunədir - örnəkdir. Onların ömür yolundan çoxları dərs götürüb özünə yol seçir, həyatlarını halallıq və düzlük üzərində qurmağa çalışır.**

# Görkəmli pedaqoq, ictimai-siyasi xadim

Belə insanlardan biri də Zahid İbrahim oğlu Qaralovdur. Hər şeydən əvvəl, səbr və təmkin yolçusu, sadəlik və xeyirxahlıq mücəssəməsi - bunlar onda cəmləşmişdi. Attığı bütün addımlarda haqq-ədaləti göz bəbəyi kimi qoruyan, milli-mənəvi dəyərlərimizi, adət və ənənələrimizi gözünün üstündə saxlayan, yüksək intellektli Azərbaycan ziyalısı, görkəmli ictimai-siyasi xadim idi. Ömrünün xeyli hissəsini elmə, təhsilə, dövlətçiliyə və cəmiyyət üçün faydalı olan işlərə həsr edən fədakar insan Zahid Qaralov deyəndə istər-istəməz gözümüz önünə sadəlik, düzlük, mərdlik, cəsarət və böyüklük obrazları gəlir və bu obrazlar onun keçdiyi şərəfli həyat yolunu müəyyən edir.

Həyat kredosunu Zahid Qaralov özü belə ifadə edirdi: "Mən çox sadə, adi həyat yaşamışam. Alimlərdən, ictimai-siyasi xadimlərdən, həyat hadisələrindən dərs almışam və bu dərsləri özümdən sonra gələnlərə doğru-düzgün ötürməyə çalışmışam, keçmişimizlə gələcəyimiz arasında möhkəm körpü yaratmışam. Heç kəsi incitməmişəm. Kimə nə etmişəmsə, bunu özümə borc bilib etmişəm. Heç kəs mənə borclu deyil. Təmtəraqlı məclisləri sevməmişəm. Həyatda nəyə nail olmuşamsa, Allahıma, xalqıma və öz zəhmətimə minnətdaram. Mənim ən böyük dövlətim təmiz nəfsli, yüksək mənəviyyatlı, ağıllı övladlarım, qədirbilən tələbələrim, müxtəlif kollektivlərdə birgə çalışdığım gözəl insanlar, dostlarım, qohumlarım, Azərbaycan ziyalılarıdır".

Zahid Qaralov keçdiyi zəngin və şərəfli həyat yolunun bütün dövrlərində ölkəmizin milli maraqlarını və milli dəyərlərini hər şeydən üstün tutaraq istər elmi-pedaqoji, istər qanunvericilik, istərsə də ictimai-siyasi sahədəki fəaliyyətində öz həyat salnaməsinin parlaq səhifələrini yaratmışdır. Həmişə prinsipiallıq, əzmkarlıq nümayiş etdirərək sədaqətlə dövlətimizə, millətimizə xidmət etmiş və xalqımız tərəfindən böyük hörmət və rəğbət hissi ilə qarşılanmışdır. Gənc yaşlarından əmək fəaliyyətinə başlayaraq doğulduğu Borçalı mahalının Başkeçid (Dmanisi) rayonunun Ormeşən kəndində müəllim, məktəb direktorluğundan Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda direktor, respublikamızın maarif nazirinin müavini, YAP İdarə Heyətinin və Siyasi Şuranın üzvü, YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı və parlamentin Regional məsələlər daimi komissiyasının sədri vəzifələrinədək yüksəlmişdir.

O, tutduğu vəzifədən asılı olmayaraq, üzərinə düşən bütün işləri yüksək peşəkarlıqla, layiqincə yerinə yetirərək göstərilən etimadı daima doğrultmuş, dövlətimizin və xalqımızın etibarını qazanmışdır. O, fədakar pedaqoq, elm xadimi və millət vəkili kimi daima Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və xalqımızın rifahının yüksəldilməsi üçün çalışmış, milli maraqları hər şeydən üstün tutmuşdur.

Azərbaycan pedaqogika elminin inkişafına mühüm töhfələr verən Zahid Qaralov təhsil quruculuğu və məktəblilərin təlim-tərbiyəsi problemlərinə dair sanballı tədqiqatların müəllifi kimi tanınır. O, 1967-ci ildə namizədlik, 1994-cü ildə doktorluq dissertasiyalarını müdafiə edib, müvafiq elmi dərəcələr almış və professor elmi adına layiq görülmüşdür. 200-dən çox elmi məqalənin və 60-dan çox monoqrafiyanın, dərslik və dərs vəsaitinin müəllifidir. 170-ə yaxın elmlər namizədi və elmlər doktoru yetişdirmişdir. Respublikada pedaqogika sahəsində elmi kadrların hazırlanmasında Zahid Qaralovun böyük xidmətləri vardır. Onun rəhbərliyi altında onlarla tədqiqatçı dissertasiya müdafiə edib. Görkəmli alimin ölkəmizdə və onun hüdudlarından kənarda pedaqogikanın aktual problemlərinə həsr olunmuş müxtəlif elmi simpozium və konfranslardakı çıxışları mütəxəssislər tərəfindən yüksək dəyərləndirilib. Azərbaycan Respublikasının əməkdar müəllimi kimi yüksək ada layiq görülmüşdür. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında "Pedaqoji və psixoloji elmlər üzrə ekspert komissiyası"na uzun illər sədrlik etmişdir.

Müstəqilliyimizin ilk illərində ölkəmizin ən çətin və ən ağır dövründə baş verən ictimai-siyasi proseslərdə Zahid Qaralovun daha yaxından və fəal iştirak edərək göstərdiyi xidmətləri və nümunəvi vətəndaşlıq keyfiyyətlərini qeyd etmək lazımdır. 1991-ci ilin oktyabr ayından 1993-cü ilin iyun ayına qədər bir-birini tez-tez əvəzləyən itirilmiş imkanlar, itkilər və hakimiyyəti qanunsuz, zorla ələ keçirən səriştəsiz, səmərəsiz idarəçiliyə malik olan və milli maraqları arxa plana keçirən biabırçı hakimiyyətlər dövrü ölkədə elə bir vəziyyət yaratmışdı ki, Azərbaycan nəinki müstəqilliyini qorumaq iqtidarında deyildi, hətta məhv olmaq, parçalanmaq və dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə dayanmışdı. Belə bir dövrdə Zahid Qaralov bir qrup ziyalılarla - "Partiyamızın qızıl fondu" adlandırılan "91-lər"lə bərabər yeganə qurtuluş yolunu Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsində, yeni siyasi partiya yaradılaraq xalqın onun ətrafında birləşməsində görür və xalqımızın 91 nəfər qeyrətli ziyalısının imzaladığı o tarixi müraciəti Heydər Əliyevə ünvanlandırırlar.

Regional məsələlər daimi komissiyasına sədrliyi dövründə Z.Qaralov müstəqillik dövrü üçün tamamilə yeni institut sayılan bələdiyyələrin nəinki qanunvericilik bazasının yaradılması, eləcə də bu yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin səmərəli təşkili və idarəedilməsi sisteminin qurulmasında əhəmiyyətli rol oynamış və onun bu sahədə faydalı ideyaları bu gün də aktuallığını saxlamaqdadır.

Zahid Qaralovun ən böyük xidmətlərindən biri də müstəqil dövlətimizin siyasi sisteminin sütunu hesab olunan Yeni Azərbaycan Partiyasının yaradılmasında fədakarlıq göstərməsi, Naxçıvanda keçirilən Yeni Azərbaycan Partiyasının təsis konfransında fəal iştirakı, İdarə Heyətinin və Siyasi Şuranın üzvü seçilməsi idi. Zahid Qaralov YAP Səbail rayon təşkilatının yaradıcılarından biri kimi uzun illər (1993-2015-ci illər) yüksək peşəkarlığı, siyasi mədəniyyəti, bacarığı, təşkilatçılıq qabiliyyəti ilə rayon təşkilatına uğurla rəhbərlik etmişdir.

Mənim Zahid müəllimlə birgə fəaliyyətim 2000-ci illərə təsadüf edir. O vaxt Azərbaycan Dövlət İqtisad Universitetində YAP Səbail rayon təşkilatının ilk ərazi təşkilatı fəaliyyət göstərirdi. Zahid müəllim universitetimizdə keçirilən müxtəlif tədbirlərdə dəfələrlə olmuş və geniş məzmunlu məruzələrlə tələbə-müəllim kollektivi qarşısında çıxışlar etmişdir. Sonrakı illərdə Milli Məclisdə Elm və təhsil komitəsində "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu layihələrinin hazırlanması zamanı Zahid müəllimlə sıx və məhsuldar əməkdaşlığımızı davam etdirmişik və geniş fikir mübadiləsi aparmışıq. Onun məktəbəqədər və xüsusilə ümumi orta təhsil sisteminin müasir tələblər səviyyəsində qurulması və idarə edilməsi istiqamətində təqdim etdiyi təkliflər və tövsiyələr sözügedən qanunun müvafiq müddəalarında öz əksini tapmışdır. Onunla əməkdaşlığımızı və söhbətlərimizi indi də xatırlayaraq böyük əminliklə deyə bilərəm ki, Zahid Qaralov vətənini, dövlətini, xalqını sevən və onlara son dərəcə bağlı olan əqidəli və sədaqətli bir ictimai-siyasi xadim, daim düzgünlüyün və haqqın tərəfində yer alan ədalətli və vicdanlı bir insan, müxtəlif səpkili problemləri hər zaman diqqət mərkəzində saxlayan, bu problemlərdən çıxış yolları axtarmağa və xalqı maarifləndirməyə çalışan ziyalı, yaradıcı bir alim, istənilən vaxt əməkdaşlığa, dialoqa açıq olan və digər müsbət keyfiyyətləri özündə cəmləşdirən bütöv bir şəxsiyyət idi.

Zahid Qaralovun çoxşaxəli fəaliyyəti yalnız elm və təhsillə bağlı olmayıb. Onun bu gün də aktuallığını saxlayan ümumbəşəri problemlərin həllinə həsr edilmiş konseptual fikirləri və fəlsəfi düşüncələri müəllifi olduğu çoxsaylı monoqrafiyalarında öz əksini tapmış və gənc nəslin yetişdirilməsində pedaqoqlarımız üçün yol xəritəsinə çevrilmişdir.

Zahid Qaralovun elmi-pedaqoji, ictimai-siyasi fəaliyyəti xalqımız, dövlətimiz qarşısındakı xidmətləri layiqincə qiymətləndirilmişdir. O, bir sıra orden və medallarla, o cümlədən müstəqil Azərbaycan Respublikasının ali mükafatları olan "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif edilmişdir.

Zahid Qaralov görkəmli alim, ictimai-siyasi xadim, nümunəvi və qayğıkeş ailə başçısı, elinə-obasına bağlı təəssübkeş bir insan kimi daima qəlbimizdə yaşayacaqdır.

***Şəmsəddin HACIYEV,***
***Milli Məclisin deputatı,***
***YAP Səbail rayon təşkilatının sədri***


*Təkrar*

## Bakı Şəhər İcra Hakimiyyəti
## Mənzil-Kommunal Təsərrüfatı Departamenti

*açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, aşağıda göstərilən LOT üzrə tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı şəkildə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

LOT-2. Kommunal və inşaat təyinatlı mal-materialların və məmulatların alınması.

Tender iştirakçılarının ixtisas göstəricilərinin müqayisəsi zamanı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2 maddəsində göstərilən meyarlara üstünlük veriləcək. Tenderdə iştirak etmək istəyənlər LOT üçün 100 manat məbləğində iştirak haqqını sifarişçinin bankdakı hesablaşma hesabına köçürdükdən sonra göstərilmiş ünvandan tenderin əsas şərtlər toplusunu ala bilərlər. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir.

Təşkilat: Bakı Şəhər Mənzil-Kommunal
Təsərrüfatı Departamenti
Beynəlxalq Bankın Nərimanov filialı
Kod: 805540
VÖEN: 9900001881
M/h: AZ03NABZ01350100000000002944
SWIFT: BIK IBAZAZ2X
H/h: AZ14IBAZ38060019449887596206
VÖEN: 1500116861

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək istəyənlər 30.07.2019-cu il saat 17:00-dək aşağıdakı sənədləri Tender komissiyasına təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair öhdəliklərin olub-olmaması barədə arayışlar;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq edilmiş maliyyə hesabatları;*
- *analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat;*
- *göstərilən işlərin yerinə yetirilməsi üçün FHN tərəfindən verilmiş razılıq (lisenziya) sənədi;*
- *tender təklifi zərflərin açıldığı gündən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır;*
- *tender təklifinə onun ümumi dəyərinin 1 faizi məbləğində bank zəmanəti ilə təminat verilməlidir. Həmin təminat zərflərin açıldığı gündən sonra azı 60 bank günü müddətində qüvvədə olmalıdır.*

İddiaçılar LOT üzrə tender təkliflərini 06.08.2019-cu il saat 17:00-a qədər aşağıda göstərilən ünvana təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender proseduru 07.08.2019-cu il saat 16:00-da Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin binasında (Ceyhun Hacıbəyli küç. 220, (keçmiş N.Yusifbəyli küç. 73)) keçiriləcəkdir.

Tenderlə əlaqədar məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: Tamella Nağıyeva, telefon: 465-62-29.

Tender komissiyası

*Təkrar*

## Avadanlığın satın alınması ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti

### *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (əlaqələndirici şəxs - Tender komissiyası (012) 596 32 73) ünvanından ala bilərlər.

**İştirak haqqı: 200 (iki yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/HESABI: AZ18CTRE00000000000004788202**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*10. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **30 iyul 2019-cu il tarixdə saat 17:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **07 avqust 2019-cu il saat 17:00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **08 avqust 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı yerli orqanları və tabeliyində olan sosial xidmət müəssisələri tərəfindən istifadə ediləcək dəftərxana və təsərrüfat mallarının satın alınması ilə əlaqədar

### *açıq tenderə dəvət edir*

**Tender 2 LOT üzrə keçirilir:**

**LOT 1:** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı və yerli orqanları tərəfindən istifadə ediləcək dəftərxana və təsərrüfat mallarının satın alınması.

**LOT 2:** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun tabeliyində olan sosial xidmət müəssisələri tərəfindən istifadə ediləcək dəftərxana və təsərrüfat mallarının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərbadi, 80 (əlaqələndirici şəxs: Tender komissiyası (012 530-29-03)) ünvanından ala bilərlər.

**İştirak haqqı:**
**LOT 1** -1000.00 (bir min) manat
**LOT 2** - 600.00 (altı yüz) manat

**VÖEN: (DSMF) 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**

| | |
|---|---|
| **H/h:** | **AZ46CTRE00000000000007018504** |
| **M/h:** | **AZ41NABZ01360100000000003944** |
| **VÖEN:** | **1401555071** |
| **Kod:** | **210005** |
| **SWIFT:** | **CTREAZ22** |

| | |
|---|---|
| **Büdcə gəlirlərinin təsnifat kodu:** | -142319 |
| **LOT 1. Büdcə səviyyəsinin kodu :** | - 4 |
| **LOT 2. Büdcə səviyyəsinin kodu :** | - 7 |

İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddəti bitdikdən sonra 30 bank günü);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **29 iyul 2019-cu il saat 17:00-a,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **07 avqust 2019-cu il saat 17:00-dək** Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərdabi, 80 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **08 avqust 2019-cu il saat 16:00-da** Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərdabi, 80 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Azərbaycanlı jurnalistlər Tbilisidən medalla qayıdıblar



İyulun 6-da Gürcüstanın paytaxtı Tbilisidə idman jurnalistləri arasında beynəlxalq futbol turniri keçirilib. Əfsanəvi idman şərhçisi Kote Maxaradzenin xatirəsinə həsr olunan yarışda 6 ölkənin jurnalistləri mübarizə aparıb. Gürcüstan, Türkiyə, Ukrayna, Litva və Ermənistanın yarışdığı turnirdə komandamız uğurla çıxış edərək 10 xalla 3-cü yeri tutaraq bürünc medala və xüsusi kuboka layiq görülüb. Ukrayna 13 xalla 1-ci, Gürcüstan 11 xalla 2-ci yeri tutub.

Qəzetimizin əməkdaşı Elçin Cəfərovun da yer aldığı Azərbaycan yığmasının heyətində Elnur Əşrəfoğlu, Gündüz Abbaszadə, Sərxan Mustafayev, Şəmsəddin Abbasov və digər tanınmış jurnalistlər olub. Azərbaycanlı jurnalistlər ilk turda ukraynalı həmkarlarına uduzsalar da, ardıcıl olaraq Türkiyə (7:0), Litva (2:0) və Gürcüstan (1:0) komandaları üzərində qələbə qazanıblar. Komandamızın kapitanı Gündüz Abbaszadə turnirin ən yaxşı hücumçusu mükafatına layiq görülüb.

Qeyd edək ki, Azərbaycan-Ermənistan matçı keçirilməyib və hər iki tərəfə bir xal verilib.

Bir maraqlı məqamı da vurğulayaq ki, turnirin qalibi Ukrayna komandası isə gümüş medal qazanan Gürcüstan yığmasına məğlub olduğu üçün ümidini Azərbaycanın meydan sahiblərinə qalib gəlməsinə bağlamışdı. Ona görə də turnirin ən böyük maraq doğuran Gürcüstan-Azərbaycan qarşılaşması baş mükafatın müəyyən edilməsi baxımından həlledici idi. Komandamızın bu oyunda qalib gəlməsi Ukraynanın 1-ci, Gürcüstanın 2-ci və Azərbaycanın 3-cü yeri tutması ilə nəticələndi. Təsadüfi deyil ki, Azərbaycan jurnalistlərinin bu oyunda qələbəsinə ən çox sevinən Ukrayna tərəfi oldu. Buna görə də ukraynalılar mükafatlandırma mərasimində Azərbaycana təşəkkür etməyi də unutmadılar.

Azərbaycanlı jurnalistlərdən ibarət komandanın kapitanı Gündüz Abbaszadə bildirib ki, turnir müxtəlif ölkələrdən idman jurnalistlərinin bir-birlərini yaxından tanıması baxımından əhəmiyyət kəsb edirdi: "Qonaqpərvərliyə görə gürcüstanlı həmkarlarımıza təşəkkür edirik. Qarşılaşmalara gəlincə isə tamaşaçılar bir-birindən maraqlı mübarizələrin şahidi oldular. Yekunda 3-cü yerlə kifayətlənsək də, dostluq qazandıq".

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:
**GPON layihəsinin tətbiqi ilə əlaqədar mal-materialların satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**200 (iki yüz) manat (ƏDV xaric) iştirak haqqını**
sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

| | |
|---|---|
| **VÖEN:** | **9900044741** |
| **Hesab:** | **AZ14AZPO91015461200420100157** |
| **Bank:** | **Azərpoçt MMC PF 1** |
| **Kodu:** | **691011** |
| **Bankın VÖENi:** | **9900037711** |
| **M/h:** | **AZ76NABZ01350100000000094944** |
| **S.W.İ.F.T:** | **AZPOAZ22** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **25 iyul 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

*- Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- İddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*- Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **05 avqust 2019-cu il saat 17:00-a** qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **06 avqust 2019-cu il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: **Məmmədov Faiq,**
**tel.: (+994 12) 498-39-29.**

***Tender komissiyası***

***Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar xidmətin Avtonəqliyyat təsərrüfatının əməkdaşı Murad Zahir oğlu Nemətovun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

# Bakıda 542 yeni lift quraşdırılacaq





*Dövlət başçısı İlham Əliyevin Bakı şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı imzaladığı müvafiq sərəncamının icrası ilə əlaqədar Bakı Şəhər "Lifttəmir" İstehsalat Birliyi tərəfindən bu sahədə çox böyük təcrübəsi olan və geniş texniki imkanlara malik Almaniya Federativ Respublikasının Wittur Holding GMBH şirkəti ilə müqavilə imzalanıb.*

Müqavilə əsasında bu ilin sonuna kimi 542 liftin Bakıya gətirilməsi nəzərdə tutulub. Hazırda 63 ədəd lift gətirilib və paytaxtın Nizami rayonunda quraşdırılmasına başlanır. İlin sonuna kimi bütün liftlərin gətirilməsi və quraşdırılması həyata keçiriləcək. Hazırda gətirilən liftlərin birinci hissəsi Nizami rayonu, Qara Qarayev prospekti 47 ünvanında yerləşən 10 bloklu, 9 mərtəbəli yaşayış binasında quraşdırılmağa başlanılıb.

Alınan liftlər keyfiyyət və texniki parametrlərinə görə müasir standartlara tam cavab verir. İşlər çərçivəsində köhnə liftlər demontaj edilib, şaxtalar, binanın damında lift avadanlığının yerləşdiyi otaqlar təmir olunub, üstlərinə ruberoid çəkilib.

Qeyd edək ki, Bakı şəhəri üzrə çoxmərtəbəli binalarda istismar müddəti ötmüş liftlər dəyişdiriləcək. Bağlanan müqavilələrə və görülən işlərə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən ciddi nəzarət olunur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## Aralıq dənizində 44 miqrant xilas edildi



Almaniyanın "Sea-Eye" qeyri-hökumət təşkilatına məxsus "Alan Kurdi" gəmisi Aralıq dənizində 44 miqrantı xilas etmişdir. Bu barədə təşkilatın mətbuat xidməti Twitter səhifəsində xəbər verir. Malta donanması qaçqınları "Alan Kurdi" gəmisindən qəbul edərək sahilə çatdırmalıdır.

Bundan əvvəl Malta hökuməti Liviya sahilləri yaxınlığında "Alan Kurdi" gəmisindən alınmış 65 miqrantı qəbul etmişdir. Avropa Komissiyası və Almaniya ilə razılığa əsasən qaçqınlar Maltadan Avropa İttifaqının digər ölkələrinə göndəriləcək.

## Albaniyada etiraz aksiyaları yenidən başlamışdır

Albaniyada hökumət əleyhinə etiraz aksiyaları yenidən başlamışdır. Demokratlar Partiyasının başçılıq etdiyi müxalifətin çağırışı ilə paytaxt Tiranənin küçələrinə minlərlə adam çıxmışdır. Onlar sosialistlər hökumətini və baş nazir Eddi Ramanı korrupsiyada və mütəşəkkil cinayətkarlıqla əlaqədə ittiham edirlər. Bu barədə "Euronews" telekanalı xəbər verir.

Bundan əvvəl müxalifət ötən ayın 30-na təyin olunmuş yerli hakimiyyət orqanlarına seçkiləri boykot etmişdi.

Albaniya müxalifəti fevral ayının ortalarından hakim sosialistlərin seçkilərin nəticələrini saxtalaşdırdığını bildirib parlamentdəki deputat yerlərindən imtina etdikdən sonra hökumət əleyhinə aksiyalar keçirir. Etirazçılar yenidən səsvermə keçirilməsini və 2013-cü ildən baş nazir vəzifəsini tutan Eddi Ramanın istefasını tələb edirlər.

## Yəməndə 700 nəfərdən çox adam vəbanın qurbanı oldu



BMT Baş katibinin rəsmi nümayəndəsinin müavini Fərhan Hak Yəməndə vəbaya yoluxanların sayı barədə yeni məlumat açıqlamışdır. Bildirilir ki, cari ildə ölkədə azı 460 min nəfər, o cümlədən 200-ə yaxın uşaq xəstələnmişdir. Yoluxanların sayı ötən ildəkindən 80 min nəfər çoxdur.

Həmin müddətdə epidemiya 705 nəfərin həyatına son qoymuşdur.

Qeyd olunur ki, içməli suyun çatışmazlığı və daşqınlar ucbatından epidemiya sürətlə yayılır.

Bundan əlavə, Yəməndə denge qızdırması, malyariya və digər təhlükəli infeksion xəstəliklər də tüğyan edir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Hüseynbala Mirələmova əzizi

**ATAXAN ŞİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatları Hadi Rəcəbli və Cavanşir Paşazadə Milli Məclisin deputatı Hüseynbala Mirələmova əzizi

**ATAXAN ŞİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin Daxili nəzarət və audit şöbəsinin müdiri Heybət İmanova əzizi

**CAVİD MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi iş yoldaşları Gülarə Məmmədovaya əzizi

**SƏLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin kollektivi general-mayor Akif Yusifova atası

**İSAXAN YUSİFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Milli Məclisin deputatı Hüseynbala Mirələmova əzizi

**ATAXAN ŞİRİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadəyə əzizi

**ŞÜKUFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova qayınatası

**KAMİL MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və komitənin üzvləri Eldar Quliyev, Tahir Süleymanov, Mahir Aslanov, Novruzəli Aslanov, İqbal Məmmədov, Elçin Quliyev, Eldəniz Səlimov, Cavanşir Paşazadə, Aydın Hüseynov və Milli Məclis Aparatının əməkdaşları Zahid Abbasov, İsa Hüseynov, Məhəmməd Gülməmmədov Milli Məclisin deputatı, Aqrar siyasət komitəsinin üzvü Hüseynbala Mirələmova qayınatası

**ATAXAN ŞİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universitetinin rektorluğu Ümumi şöbənin müdiri Nazim Şiriyevə atası

**ATAXAN AĞAXAN OĞLU ŞİRİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İxtiyar Hüseynli və Rəşad Cəfərli Milli Məclisin deputatı Hüseynbala Mirələmova əzizi

**ATAXAN ŞİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universiteti Fəlsəfə kafedrasının əməkdaşları kafedranın müəllimi İslam İslamova atası

**ƏHMƏDAĞA İSLAMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8805
Sifariş 2238
Qiyməti 40 qəpik